RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 197 (8790) CÜMƏ AXŞAMI, 16 sentyabr 2021-ci il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az





# İlham Əliyevin çevik və məsuliyyətli idarəçilik mexanizmi

## Prezident kadr islahatları, yenilik və dəyişikliklər zamanı, ilk növbədə, xalqın maraqlarını nəzərə alır

Son illər ölkədə dövlət idarəçiliyi sistemi sürətlə təkmilləşdirilir. Postmüharibə dövründə də bu istiqamətdə islahatlar davam etdirilir. Bütün islahatlar zamanı Prezident İlham Əliyev, ilk növbədə, xalqın və dövlətin maraqlarını, milli mənafeyini nəzərə alır. Cəmiyyətin islahatlara münasibətinə çox yüksək önəm verir və vətəndaşların proseslərlə bağlı nə düşünməsi, hansı sahələrdə nədən razı və ya narazı olması diqqətdə saxlanılır. Ona görədir ki, ölkə ictimaiyyəti Prezidentin bütün yenilik və dəyişikliklərini müsbət dəyərləndirir.

### İdarəetmədə səmərəlilik artır

Dövlət idarəetmə sistemində həyata keçirilən struktur islahatları çərçivəsində yenilikçi, müasir düşüncəli, intellektual kadrlara yüksək etimadın göstərilməsi xalq tərəfindən təqdirəlayiq hal kimi qiymətləndirilir.

İlham Əliyev hər zaman qeyd edir ki, kadr siyasətində şəxsi tanışlıq, rəğbət, dostluq əlaqələri yox, peşəkarlıq, vətənpərvərlik və milli dəyərlər əsas olmalıdır. Peşəkar, Vətənə bağlı olan, bilikli və Azərbaycanın maraqlarını layiqincə müdafiə edə bilən kadrlar önə çəkilməlidir.

Ümumiyyətlə, Azərbaycanda dövlət idarəçiliyində müasir, kreativ düşüncəli kadrların irəli çəkilməsi ənənəsi hər zaman mövcud olub.

Ardı 2-ci səh.

# İlham Əliyev "Buzovna-1" yarımstansiyasının açılışını edib



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.**

Bax: səh. 2

# Birinci vitse-prezident Mehriban Əliyeva Bilik Günü münasibətilə məktəbliləri və tələbələri təbrik edib

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva Bilik Günü münasibətilə məktəbliləri və tələbələri təbrik edib.

AZƏRTAC xəbər verir ki, Birinci vitse-prezident Mehriban Əliyeva rəsmi "Instagram" hesabında bununla bağlı paylaşım edib. Paylaşımda deyilir:

"Əziz məktəblilər və tələbələr!

Sizi Bilik Günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm. Qoy yeni tədris ili parlaq, yaddaqalan, səmərəli olsun və sizə çoxlu bilik, uğur və nailiyyətlər gətirsin! Sizin zəruri bilik və vərdişlər qazanmağınıza, istedad və qabiliyyətinizi inkişaf etdirməyinizə kömək göstərən bütün müəllimlərə təşəkkürümü bildirirəm! Hər birinizə möhkəm cansağlığı, gümrahlıq, tükənməz enerji, əzmkarlıq, gözəl əhvali-ruhiyyə və əla qiymətlər arzulayıram!"



# Azərbaycan - Türkiyə qardaşlığının şərəf salnaməsi



Bax: səh. 4

# İşğaldan azad edilən ərazilərin su təminatı bərpa olunur

## Bunun üçün həm yerüstü, həm də yeraltı su mənbələrindən istifadə edilir

Arid zonada yerləşən Azərbaycanın su ehtiyatları olduqca məhduddur. Yerüstü su ehtiyatları 32,2 milyard kubmetr təşkil edir və quraqlıq illərində bu rəqəm 22,6 milyard kubmetrə qədər azalır. Yeraltı suların miqdarı isə 5,2 milyard kubmetrdir. Orta illik su çatışmazlığının 4,5-5 milyard kubmetr arasında dəyişdiyi Azərbaycanın yerüstü su ehtiyatlarının 70 faizi ölkə hüdudlarından kənarda formalaşır.

Son illər ölkə üzrə bütün su mənbələrindən orta hesabla 10-14 milyard kubmetr su götürülür ki, onun da 60-70 faizi kənd təsərrüfatının, 20-25 faizi sənayenin, qalan hissəsi təsərrüfat və içməli su tələbatının ödənilməsinə sərf edilir. Qlobal iqlim dəyişilmələri ilə əlaqədar dünyada, o cümlədən Azərbaycanda müşahidə olunan uzun sürən quraqlıqlar mövcud çətinlikləri bir qədər də artırır.

Ardı 5-ci səh.

# Zəfər yolu

*(Lirik poema)*

*"Burada səhvə yol verilə bilməzdi.*
*Çünki bu, tarixi məsuliyyətdi..."*

**İlham ƏLİYEV,**
**Ali Baş Komandan**

Şuşa yolu, Zəfər yolu,
Otuz illik səfər yolu!
Cənab Ali Baş Komandan,
sərkərdəsən sən o vaxtdan.
İstidə, boranda, qarda,
Yollardasan, o yollarda!
Yol içindən yol seçirsən,
Keçilməz yollar keçirsən, -
Fikrin-zehnin yollarını,
44 günün yollarını...

Ardı 6-cı səh.




◆ Yeni dərs ili qarşısında

# Qarabağ və Şərqi Zəngəzurda təhsil infrastrukturu da yaradılır

Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında şanlı Azərbaycan Ordusunun cəmi 44 gün ərzində düşmən tapdağından azad etdiyi əzəli torpaqlarımızda bu gün həyat yenidən canlanır, bütün sahələrdə quruculuq, bərpa, tikinti işləri gedir. Sürətli şəkildə və müvəffəqiyyətlə həyata keçirilən bütün bu işlər keçmiş məcburi köçkünlərin öz doğma yurdlarına tezliklə qayıdışı üçündür.

Dövlət başçısının bu ilin yanvarında, 2020-ci ilin yekunlarına həsr olunan videokonfrans şəklində keçirilən müşavirədə də bəyan etdiyi kimi, işğaldan azad olunan torpaqlarda böyük planlar həyata keçirilir: "...Biz demişdik ki, torpaqlar işğaldan azad olunandan sonra bu torpaqları tezliklə bərpa edəcəyik. Mən bu yaxınlarda demişdim ki, biz Qarabağ bölgəsində cənnət yaradacağıq və sözümdə dururam..."

Vətən müharibəsindən cəmi bir neçə gün sonra, noyabrın 16-da Prezident İlham Əliyev işğaldan azad edilən Füzuli və Cəbrayıl rayonlarına səfəri zamanı Füzuli - Şuşa, yeni "Zəfər yolu"nun təməlini qoyaraq azad edilən Vətən torpaqlarımızda görüləcək gələcək işlərin uğurlu startını verdi...

Artıq Qarabağda və Şərqi Zəngəzurda erməni vandalizminin barbarlıq izləri silinir, Böyük qayıdışı təmin etmək üçün mənfurların dağıtdıqları, məhv etdikləri hər şey yenidən əvvəlki görkəminə qaytarılır. Maddi, mədəni, dini irsimiz bərpa olunur, yeni yolnəqliyyat infrastrukturu yaradılır, yüksəkgərginlikli elektrik xətləri çəkilir, yeni yarımstansiyalar inşa olunur, beynəlxalq hava limanları tikilir, "ağıllı kənd", "ağıllı şəhər" layihələri gerçəkləşdirilir...

Ardı 2-ci səh.

# İlham Əliyev "Buzovna-1" yarımstansiyasının açılışını edib









Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev paytaxtın Xəzər rayonunda yeni tikilən 110/35/10 kilovoltluq "Buzovna-1" yarımstansiyasının açılışında iştirak edib.

AZƏRTAC xəbər verir ki, "Azərişıq" ASC-nin sədri Vüqar Əhmədov Prezident İlham Əliyevə yarımstansiyada görülən işlər barədə məlumat verdi.

Dünyada davam edən pandemiya və iqtisadi-maliyyə çətinliklərinə baxmayaraq, dövlət başçısının birbaşa diqqəti sayəsində ölkəmizdə çox mühüm sosial infrastruktur layihələri uğurla və ardıcıl şəkildə icra olunur. Bu layihələr arasında respublikanın bütün şəhər və rayonlarının, o cümlədən paytaxtın elektrik təsərrüfatının müasirləşdirilməsi istiqamətində həyata keçirilən silsilə və kompleks yenidənqurma tədbirlərinin xüsusi əhəmiyyəti var. Azərbaycan Prezidentinin rəhbərliyi ilə həyata keçirilən bu layihələr, ilk növbədə, insanların sosial rifah halının daha da yaxşılaşdırılmasına, onların rahatlığının təmin edilməsinə, sosial məsələlərinin həllinə yönəlib. Bu, eyni zamanda, elektrik enerjisinə tələbatın ödənilməsi, elektrik şəbəkələrində yüklənmələrin azalması, texniki itkilərin minimuma endirilməsi baxımından da çox önəmlidir.

Hazırda dövlət proqramlarının icrası ilə bağlı Bakı şəhərinin elektrik təchizatının daha da yaxşılaşdırılması üçün genişmiqyaslı tikinti, yenidənqurma və təmir işləri aparılır. Bu işlərin davamı olaraq, Xəzər rayonu ərazisində "Buzovna-1" yarımstansiyası tikilib. Yeni yarımstansiya artan tələbatı ödəməklə Buzovna, Zuğulba, Albalılıq, Bilgəh, Nardaran, Maştağa qəsəbələrinin, dövlət əhəmiyyətli obyektlərin, həmçinin istirahət, turizm, tibb obyektlərinin fasiləsiz elektrik enerjisi ilə təmin edilməsində böyük rol oynayacaq.

Yarımstansiya məsafədən idarə olunan SCADA dispetçer sisteminə qoşulub, ən müasir qurğular və avtomatika sistemi ilə təchiz edilib. Ümumilikdə "Azərişıq" ASC tərəfindən yeni inşa olunan qapalı tipli yarımstansiyalarda texniki və texnoloji yeniliklərə xüsusi diqqət verilir. Paytaxtın digər ərazilərində 110, 35 və 0,4 kilovoltluq ötürücü xətlər kabellə yeraltı borular və tunellər vasitəsilə çəkilib ki, bunların istismar müddəti baxımından etibarlılığı 2-3 dəfə çoxdur.

Prezident İlham Əliyev "Buzovna-1" yarımstansiyasını işə saldı.

Dövlət başçısına işğaldan azad olunmuş ərazilərdə "Azərişıq" Açıq Səhmdar Cəmiyyəti tərəfindən "Ağıllı şəbəkə konsepsiyası" əsasında görülmüş işlər barədə də məlumat verildi.

Bildirildi ki, Şuşa şəhəri və Suqovuşan qəsəbəsinin elektrik təchizatının təmin edilməsində ilk dəfə müasir tipli mühafizəli və izolyasiyalı kabel xətti, paylayıcı şəbəkə modeli tətbiq olunub. Ümumilikdə işğaldan azad edilmiş ərazilərin elektrik enerjisi ilə təchizatında innovativ texnologiyaların tətbiqi uğurla davam etdirilir. Belə ki, müasir tip mühafizəli və izolyasiyalı kabel xətlərinin texniki-iqtisadi səmərəliliyini artırmaq məqsədilə yeni fiber-optik kanalla təchiz edilmiş mühafizəli kabellərin tətbiqi nəzərdə tutulub. Bununla da həm elektrik enerjisi, həm də keyfiyyətli internet şəbəkəsinin ötürülməsi mümkündür. Beləliklə, "ağıllı şəhər" və "ağıllı kənd" layihələrinin həyata keçirilməsində mühüm əhəmiyyət kəsb edən yüksəksürətli internet şəbəkəsinin yaradılması üçün əlavə infrastrukturun qurulmasına ehtiyac qalmır və iqtisadi səmərəlilik göstəriciləri yüksəlir. Digər tərəfdən hər bir abonentin bir kabel xətti ilə həm elektrik enerjisi, həm də dayanıqlı və yüksəksürətli optik kanalla internet və rabitə xətlərinə çıxışı olacaq.

İşğaldan azad edilmiş ərazilərdə "ağıllı şəbəkə" konsepsiyası üzrə müasir, daha dayanıqlı ikipilləli 110/35 kilovoltluq şəbəkələrin iqtisadi əsaslandırması həyata keçirilib. Ənənəvi şəbəkələrlə müqayisədə bu tip şəbəkələrdə elektrik təchizat sxemi sadələşir, etibarlılıq və rentabellik dəfələrlə artır, 6 ilədək tikinti müddətinə, layihələndirmə və sənədləşdirmə vaxtına, 60 min hektardan çox faydalı torpaq sahəsinə qənaət edilir. Müasir şüşə lifli, kompozit materialdan hazırlanmış dayaqlar quraşdırılır ki, onlar da sərt iqlim və istismar şəraitinə dözümlü olmaqla yanaşı, daha az xərc tələb edir. Beləliklə, müasir texnologiyaların tətbiqi nəticəsində elektrik təchizatı şəbəkəsinin dayanıqlığı artırılaraq böyük miqdarda maliyyə vəsaitinə qənaət olunacaq.

Dövlət başçısı görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

## Meksika Birləşmiş Ştatlarının Prezidenti zati-aliləri cənab Andres Manuel Lopes Obradora

Hörmətli cənab Prezident.

Ölkənizin müstəqilliyinin 200-cü ildönümü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından ürəkdən təbrik edirəm.

İnanıram ki, Azərbaycan ilə Meksika arasındakı dostluq münasibətləri daha da inkişaf edəcək, çoxtərəfli təsisatlarda əməkdaşlığımız davam edəcəkdir.

Belə bir əlamətdar gündə Sizə möhkəm cansağlığı, xoşbəxtlik, xalqınıza daim əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 13 sentyabr 2021-ci il*

## Ucar rayonunun Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. İyirmi doqquz min nəfər əhalinin yaşadığı 7 yaşayış məntəqəsini birləşdirən Müsüslü-Təzə Şilyan-Bərgüşad-Bağban-Yuxarı Şilyan-Boyat-Qazyan avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə "Azərbaycan Respublikasının 2021-ci il dövlət büdcəsində dövlət əsaslı vəsait qoyuluşu (investisiya xərcləri) üçün nəzərdə tutulan vəsaitin bölgüsü"nün 1.1.14-cü yarımbəndində göstərilmiş vəsaitin 8,0 (səkkiz) milyon manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 sentyabr 2021-ci il*

## Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri V.İ.Sadıqovun eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilməsi haqqında

### Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 15-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Azərbaycan Respublikasının Belçika Krallığında fövqəladə və səlahiyyətli səfiri Vaqif İsmayıl oğlu Sadıqov eyni zamanda Azərbaycan Respublikasının Avropa İttifaqı yanında Nümayəndəliyinin başçısı təyin edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 15 sentyabr 2021-ci il*

# İlham Əliyevin çevik və məsuliyyətli idarəçilik mexanizmi

*Əvvəli 1-ci səh.*

Məhz İlham Əliyevin uğurla davam etdirdiyi siyasətin nəticəsidir ki, artıq ölkədə bütün sahələrdə peşəkar kadr potensialı formalaşıb. Hazırda dövlət idarəetməsinin müxtəlif sferalarında bu potensialdan səmərəli istifadə etmək imkanları yaranıb.

Yeni dövlət idarəçiliyinin tələblərinə cavab verən islahatlarla bağlı qətiyyətli mövqe ortaya qoyan Prezidentin kadr siyasətinin əsas məqsədi idarəetmədə çevikliyi və səmərəliliyi artırmaq, cəmiyyətdə formalaşan yeni çağırışlara adekvat uyğunlaşmanı təmin etməkdir.

Sentyabrın 14-də Rafiq Cəlilovu Cəlilabad Rayon İcra Hakimiyyətinin başçısı və Rəşad Tağıyevi Şəmkir Rayon İcra Hakimiyyətinin başçısı təyin olunmaları ilə əlaqədar videoformatda qəbul edən Prezident bir daha bu məsələlərə toxundu və öz məsləhətlərini verdi, əvvəlcədən xəbərdarlığını etdi.

İlham Əliyev bütün dövlət məmurlarını vəzifəyə təyin edərkən səsləndirdiyi tövsiyələri bir daha diqqətə çatdırdı: "Heç kim qanundan yuxarı dayana bilməz və burada hər kəs qanun qarşısında bərabərdir. Heç kimdə immunitet yoxdur və ola bilməz...

Əgər siz bu məsuliyyətin altına girirsinizsə, onda, bax, dediyim kimi, qanun çərçivəsində işləməlisiniz və bu yüksək etimadı doğrultmalısınız. Elə işləməlisiniz ki, vətəndaşlar sizdən razı olsunlar".

### Dövlət məmuru nümunə olmalıdır

Prezidentin səsləndirdiyi fikir və tələblər bir daha təsdiq etdi ki, dövlət korrupsiya və rüşvətxorluqla mübarizə prosesində, o cümlədən islahatların davamlılığında qətiyyətli mövqe tutub.

Dövlət başçısı yeni kadrlardan gözləntilərini, onların idarəçilikdə daha çox hansı proseslərə üstünlük verməli olduqlarını da açıqladı: vətəndaşlarla bir yerdə olmaq, daim xalqın qayğıları ilə yaşamaq, rüşvətxorluğa, korrupsiyaya qarşı ciddi mübarizə aparmaq, rayonların sosial-iqtisadi inkişafına töhfə vermək, vətəndaş məmnunluğunu, həmçinin rayonların inkişafı üçün daxili və xarici investisiyaların cəlb edilməsini təmin etmək.

Prezident İlham Əliyevin dediyi kimi, artıq hər kəs başa düşüb ki, dövlət məmuru nümunə olmalıdır, yerlərdə insanların rifahı, rahat yaşayışı məmurun fəaliyyətindən asılıdır. Yəni, Prezidentin yerlərdəki nümayəndəsi insanların arasında olmalı, qayğıları ilə yaşamalı və imkan daxilində onlara kömək etməlidir.

Əlbəttə ki, kadr islahatlarının səmərəsini görmək üçün təyin edilən şəxslərin fəaliyyətlərinin nəticələrini müəyyən müddət gözləmək lazımdır. Bu baxımdan indiyədək təyin edilən kadrlarla bağlı problem yoxdur, əksinə, bir çox sahələrdə ciddi uğurlara imza atılıb. Bu da onu deməyə əsas verir ki, Prezidentin yeni kadr təyinatları uğurludur.

Bir sözlə, Prezident növbəti dəfə yeni təyin etdiyi rayon icra hakimiyyəti başçılarını qəbul edərək onlara doğru istiqamət verdi, eyni zamanda məmurlara sərt xəbərdarlığını etdi. Əgər Prezidentin tapşırıqları layiqincə yerinə yetirilərsə, həm dövlət, həm də ölkə vətəndaşları onların fəaliyyətindən razı qalacaq. Yox, əgər bu etimad doğrulmasa, ilk növbədə, cəmiyyətdə məyusluq yaranacaq. Ona görə də yeni təyin edilmiş icra başçıları rayonlarda vəziyyəti təhlil etməli, insanları narahat edən məsələləri ciddi araşdırmalı və onların həlli yolları ilə bağlı təkliflərini hazırlamalıdırlar.

Prezident yeni çağırışların tələbinə uyğun olaraq müasir baxışlı, dünyagörüşlü yanaşmaları özündə təcəssüm etdirən və əvvəlki işində bunu göstərən şəxsləri vəzifəyə təyin edir. Göründüyü kimi, Prezidentin kadr islahatları davam edir. Bu, ölkə rəhbərinin mütərəqqi islahatlarının tərkib hissəsidir. İlham Əliyev bu prosesləri dəyərləndirərkən vurğulayır ki, islahatlar təkmilləşmə, yeni dövrə uyğunlaşma və tərəqqi deməkdir. Həqiqətən də dünya miqyasında uğurlar əldə etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, bu nailiyyətlər məhz tərəqqi hesabına əldə edilib.

Azərbaycanı tarixinin ən qüdrətli dövlətinə çevirən İlham Əliyev bu gün kadr və struktur islahatları ilə daha çevik, operativ idarəçilik mexanizmi formalaşdırır.

***Rəşad BAXŞƏLİYEV,***
***"Azərbaycan"***

# Qarabağ və Şərqi Zəngəzurda təhsil infrastrukturu da yaradılır

*Əvvəli 1-ci səh.*

### Təhsil müəssisələrimiz də erməni vandalizmi ilə üz-üzə qalmışdı

30 il ərzində, mənfur düşmən işğala məruz qoyduğu torpaqlarımızda təhsil müəssisələrini də tamamilə dağıdaraq məhv edib. Statistikaya əsasən, bu torpaqlarımızda işğaldan əvvəl ümumilikdə 259 məktəbəqədər təhsil, 673 ümumi təhsil, 40 məktəbdənkənar, 14 peşə təhsili, 7 orta ixtisas təhsili olmaqla 993 təhsil müəssisəsi fəaliyyət göstərib.

İşğaldan sonra həmin təhsil müəssisələri vəhşi düşmən tərəfindən darmadağın edilib.

Amma Ali Baş Komandan İlham Əliyevin 44 günlük "Dəmir yumruq" əməliyyatı qələbə qazanmaqla təhsil müəssisələrimizə də yeni nəfəs, dirçəliş bəxş edib...

Artıq Şuşada, Ağdamda orta məktəblərin tikintisi sürətlə aparılır.

### Qarabağın qədim məktəblərinə yeni nəfəs verilir

Bu il mayın 12-də Prezident İlham Əliyev 28 ildir ki, qəriblikdə fəaliyyət göstərən və Qarabağın ən qədim məktəbi olan Şuşa 1 saylı tam orta məktəbin yeni təməlini atdı.

Həmin zaman dövlət başçısına məlumat verildi ki, 1830-cu ildə Azərbaycanda və Cənubi Qafqazda ilk dünyəvi məktəbin bünövrəsi məhz Şuşada qoyulub. 1980-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə bu məktəbin 150 illik yubileyi qeyd olunub.

1 saylı orta məktəb yarandığı vaxtdan 1992-ci ilin may ayınadək Şuşada fəaliyyətini davam etdirib. Şəhərin erməni qəsbkarları tərəfindən işğal edilməsindən sonra məktəb Bakının Yasamal rayonundakı 38 nömrəli orta məktəbin binasında, onun maddi-texniki bazasından istifadə etməklə 2015-2016-cı tədris ilinə qədər fəaliyyət göstərib.

Prezident İlham Əliyevin 2011-ci ildə imzaladığı sərəncama uyğun olaraq Şuşa şəhər 1 saylı tam orta məktəbi 2015-2016-cı tədris ilindən etibarən yeni inşa edilən binada bütün təhsil infrastrukturu ilə şagirdlərin və müəllimlərin istifadəsinə verilib.

Hazırda isə 960 şagird yerlik məktəb üçün yenidən Şuşada möhtəşəm bina inşa edilir.

Respublika günündə, 28 mayda isə Prezident İlham Əliyev Qarabağ, ümumiyyətlə, bütün Azərbaycan təhsil ictimaiyyətinin sevincinə səbəb olan daha bir qədim təhsil müəssisəsinin, erməni vandalları tərəfindən dağıdılan Ağdam şəhər 1 saylı orta məktəbin yeni binasının təməlini qoydu.

Əsgər bəy Eyvazov tərəfindən 1883-cü ildə əsası qoyulan Ağdam şəhər 1 saylı orta məktəbi şəhərin müxtəlif yerlərində fəaliyyət göstərib. 1949-cu ildən isə hazırda Prezidentin təməlini qoyduğu ərazidə fəaliyyət göstərib. Məktəbin ikimərtəbəli binası 1993-cü ildə erməni işğalı zamanı tamamilə dağıdılıb.

Ağdamda yeni inşa olunacaq qədim məktəbin layihəsində məktəb üçün üçmərtəbəli bina və plana uyğun olaraq, inzibati hissə, tədris korpusları, idman meydançası, texniki zona təşkil olunması nəzərdə tutulub. 960 nəfər şagird üçün nəzərdə tutulan məktəbdə 18 sinif otağı, 37 fənn kabineti, kimya, fizika, biologiya laboratoriyaları yaradılacaq. Məktəbdə tədris üçün hər cür şərait, bütün texniki imkanlar olacaq.

### "Ağıllı kənd" pilot layihəsi çərçivəsində müasir təhsil müəssisələri tikiləcək

İşğaldan azad edilən ərazilərdə həyata keçirilən "ağıllı kənd" pilot layihələri çərçivəsində müasir təhsil müəssisələrinin tikintisi nəzərdə tutulub.

Cari il aprelin 26-da Prezident İlham Əliyev Cəbrayıl və Zəngilan rayonlarında olarkən dövlət başçısına məlumat verildi ki, birinci "Ağıllı kənd" pilot layihəsi Zəngilanın 1-ci, 2-ci, 3-cü Ağalı kəndlərini əhatə edir. Ərazidə, ilk olaraq, tam izolyasiya olunmuş və innovativ tikinti materiallarından istifadə olunmaqla 200 fərdi evin tikintisi nəzərdə tutulub. Bu kəndlərdə müasir məktəb, bağça, poliklinika və elektron idarəetmə mərkəzləri inşa olunacaq, turizm infrastrukturu formalaşdırılacaq.

Azərbaycan təhsil ictimaiyyətinin sevincinə və qüruruna səbəb olacaq möhtəşəm bir nailiyyət isə Ağdamda "Qarabağ" Universitetinin yaradılması olacaq.

Ağdamın Baş Planında əksini tapan "Qarabağ" Universitetinin yaradılması təkcə Qarabağ, Azərbaycan üçün bir universitet olmayacaq, həm də dünyanın ən tanınmış universitetləri ilə rəqabət apara biləcək ali təhsil müəssisəsi olacaq.

Yeni təhsil ilinin başlayacağı bir ərəfədə, həm də işğaldan azad edilən Vətən torpaqlarımızda təməli qoyularaq tikintisi həyata keçirilən təhsil müəssisələrimizdən fəxarət duymamaq mümkün deyil.

Artıq builki təhsil ilinə Vətən savaşında Zəfər qazanmağımızın qüruru ilə qədəm qoyuruq. 30 ildir ki, dərs kitablarımızda əksini tapan qara haşiyəli işğal təqvimlərini söküb atmışıq və indi onların yerlərini al qırmızı qələbə günləri tutub.

Çox keçməyəcək ki, Prezident İlham Əliyevin Qarabağda təməllərini qoyduğu bütün təhsil müəssisələrimizin elə dövlət başçısı tərəfindən möhtəşəm açılışları keçiriləcək və o məktəblərdə yenidən məktəb zənglərinin səsi ucalacaq, uşaqları dərsə səsləyəcək...

Yenə də əvvəllər olduğu kimi, həmin məktəblərdə təhsil alan Azərbaycan övladları elm və bilikləri ilə dünyaya səs salacaqlar...

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Milli Məclisin Sədri İƏT Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti ilə görüşüb





Sentyabrın 15-də Milli Məclisin Sədri Sahibə Qafarova ölkəmizdə səfərdə olan İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının nümayəndə heyəti ilə görüşüb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, Sahibə Qafarova qonaqları salamlayaraq görüşün xalqımız üçün çox əlamətdar bir gündə baş tutduğunu deyib. O, 103 il əvvəl sentyabrın 15-də Bakı şəhərinin bolşevik-daşnak qüvvələrindən azad edildiyini xatırladıb. S.Qafarova ölkələrimizin hər zaman bir-birinə dəstək göstərdiklərini qeyd edərək, bu gün də münasibətlərimizin ən yüksək səviyyədə olduğunu diqqətə çatdırıb.

Milli Məclisin Sədri bu il iyulun 27-də Milli Məclisdə keçirilmiş Azərbaycan, Türkiyə və Pakistan parlament nümayəndə heyətlərinin üçtərəfli formatda birgə görüşündən danışıb, tədbirin yekununda imzalanan Bakı Bəyannaməsinin ölkələrimiz arasında strateji əlaqələrin möhkəmlənməsinə töhfə verəcəyini bildirib.

Milli Məclisin Sədri 44 günlük Vətən müharibəsi haqqında da məlumat verib. Deyib ki, artıq tarixə qovuşmuş münaqişənin həlli ilə bağlı 30 ilə yaxın davam edən danışıqlar Ermənistanın qeyri-konstruktiv mövqeyi səbəbindən heç bir nəticə verməmişdir. Ermənistan müxtəlif təxribatlar törədərək danışıqlar prosesinə mane olmuş, torpaqlarımızı işğal altında saxlamağa çalışmışdır. Lakin ötən il ölkəmiz Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə torpaqlarımızın Ermənistan tərəfindən işğalına son qoyaraq öz ərazi bütövlüyünü bərpa edib. Bununla da Azərbaycan BMT Təhlükəsizlik Şurasının uzun illər ərzində kağız üzərində qalan 4 qətnaməsini özü icra edib. İndi işğal nəticəsində öz doğma yurd-yuvalarından didərgin düşmüş məcburi köçkünlərin doğma torpaqlarına qayıtması üçün zəmin yaranıb. Təəssüf ki, Ermənistan yenə də öz təxribatçı əməllərindən əl çəkmir və sülhün bərpa olunmasına, quruculuq, abadlıq işlərinə maneə törədir.

Qonaqların işğaldan azad olunmuş şəhər və rayonlarımıza səfər edəcəklərini bildirən Sahibə Qafarova vurğulayıb ki, onlar həmin ərazilərdə Ermənistan tərəfindən törədilən vəhşilikləri öz gözləri ilə görəcəklər. Onun sözlərinə görə, Ermənistan 30 il ərzində işğal altında saxladığı Azərbaycan torpaqlarında şəhərləri, kəndləri, xalqımıza məxsus tarixi, mədəni abidələri, məscidləri vəhşicəsinə dağıdıb. Bu ərazilər, sözün həqiqi mənasında, Xirosimanı xatırladır.

Milli Məclisin Sədri diqqətə çatdırıb ki, hazırda işğaldan azad olunmuş ərazilərimizdə quruculuq və bərpa işləri həyata keçirilir.

İslam Əməkdaşlıq Təşkilatının Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyə Respublikasının Baş ombudsmanı Şərəf Malkoç göstərilən yüksək qonaqpərvərliyə görə minnətdarlığını bildirib, ölkələrimiz arasında qardaşlıq münasibətlərinin dinamik inkişaf etdiyini vurğulayıb. 44 günlük Vətən müharibəsi dövründə Azərbaycana səfər etdiklərini xatırladan Baş ombudsman səfər çərçivəsində Gəncə, Ağdam, Mingəçevir və Tərtərdəki vəziyyətlə tanış olduqlarını, Ermənistandan atılan raketlər nəticəsində həyatlarını itirən azərbaycanlı qardaşlarımızın məzarlarını ziyarət etdiklərini, yaxınları ilə görüşdüklərini deyib. Həmin dövrdə hazırladıqları hesabatı Türkiyə və Azərbaycanda müvafiq qurumlara təqdim etdiklərini, həmçinin həmin hesabatı BMT-yə və beynəlxalq insan haqları təşkilatlarına göndərdiklərini bildirib. Şərəf Malkoç qeyd edib ki, budəfəki səfər çərçivəsində isə Ağdam, Tərtər, Şuşa və ətraf rayonlara səfər edəcəklər. Nümayəndə heyəti Ermənistanın Azərbaycan xalqına məxsus tarixi və mədəni abidələri dağıtması və məhv etməsi barədə faktlarla yerində tanış olacaq. O, həmçinin Ermənistan tərəfindən minalanmış ərazilərin xəritələrinin təqdim olunmamasını beynəlxalq hüququn kobud pozuntusu kimi dəyərləndirərək bununla bağlı müvafiq hesabat hazırlanaraq BMT-yə və insan hüquqları ilə məşğul olan beynəlxalq qurumlara göndəriləcəyini vurğulayıb.

Görüşdə çıxış edən Pakistan İslam Respublikası Ombudsmanının müşaviri Məhəmməd Cavid Qani də ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəsini qeyd edərək Pakistanın hər zaman Azərbaycanın yanında olduğunu deyib. Bildirib ki, Pakistan Azərbaycanla əməkdaşlığının dərinləşməsinə böyük əhəmiyyət verir.

Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva, Türkiyə Respublikasının ombudsmanı Celile Özlem Tunçak, Türkiyənin ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Cahit Bağçı və digər rəsmi şəxslər də görüşdə iştirak ediblər.

# Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu Milli Məclisin plenar iclasına tövsiyə olunub

Sentyabrın 15-də Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin 2021-ci il payız sessiyasında ilk iclası keçirilib. Onlayn formatda keçirilən iclasda komitə sədri Səməd Seyidov gündəlikdəki məsələlərdən danışıb.

Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, iclasda əvvəlcə 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə komitədə görülən işlər barədə hesabat təqdim edilib. Bildirilib ki, bu müddətdə komitənin 14 iclası keçirilib, 19 məsələ, o cümlədən bir sıra qanun layihələri, Azərbaycanla bəzi ölkələr arasında bağlanmış sazişlər, protokollar, müqavilələr müzakirə olunub, habelə dünyada və regionda baş verən hadisələrlə bağlı fikir mübadiləsi aparılıb. Komitənin tövsiyə etdiyi 12 məsələ Milli Məclisdə qəbul edilib.

Diqqətə çatdırılıb ki, hesabat dövründə komitə sədri və üzvləri bir sıra dövlətlərin, beynəlxalq təşkilatların nümayəndə heyətləri ilə görüşüblər. Qeyd edilib ki, ötən müddətdə komitədə Niderland Krallığı ilə ikitərəfli münasibətlərə dair müzakirələr aparılıb.

Məlumat verilib ki, ötən müddətdə komitə üzvləri, həmçinin kütləvi informasiya vasitələrində, sosial şəbəkələrdə fəallıq göstərərək beynəlxalq münasibətlərə dair öz fikirlərini bildiriblər, xüsusilə müharibədən sonrakı dövrdə Azərbaycanın haqlı mövqeyinin geniş ictimaiyyətə çatdırılmasında fəallıq nümayiş etdiriblər.

Qeyd edilib ki, 2021-ci ilin yaz və növbədənkənar sessiyaları dövründə komitəyə ümumilikdə 4742 ərizə və şikayət daxil olub, 3127 müraciətlə bağlı müvafiq tədbirlər görülüb, aidiyyəti təşkilat və idarələrə məktublar göndərilib. Komitə üzvləri tərəfindən vətəndaşların onlayn və fərdi qaydada qəbulu keçirilib.

Sonra komitənin 2021-ci ilin payız sessiyası üçün iş planına baxılıb. Bildirilib ki, qarşıdakı dövrdə bir sıra qanun layihələrinin müzakirəsi, beynəlxalq və dövlətlərarası müqavilələrin təsdiqi, icrası və ləğv edilməsi qaydalarına aid sənədlərə rəy verilməsi, parlamentlərarası əlaqələrin daha da inkişaf etdirilməsi barədə təkliflərin irəli sürülməsi, xarici ölkələrdə fəaliyyət göstərən Azərbaycan təşkilatları və oradakı soydaşlarımızla əlaqələrin inkişaf etdirilməsi nəzərdə tutulub. Növbəti sessiyanın iş planına, eyni zamanda, işğaldan azad olunmuş torpaqlarımızda erməni hərbi təcavüzünün ağır nəticələrinin, habelə “Xocalıya ədalət!” beynəlxalq təbliğat-təşviqat kampaniyası çərçivəsində Xocalı soyqırımı haqqında həqiqətlərin geniş ictimaiyyətə çatdırılması istiqamətində məqsədyönlü fəaliyyətin davam etdirilməsi və digər məsələlər daxil olunub.

Sonra komitədə “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair” Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında Azərbaycan Respublikası qanununun layihəsi müzakirə olunub.

Komitə sədri bildirib ki, Azərbaycan ilə Türkiyə arasında ən yüksək səviyyədə sıx münasibətlər qurulub. Bu gün Azərbaycan və türk əsgərləri birgə təlimlər keçirlər və bu, orduların bir-birinə yaxınlaşması deməkdir. Qeyd edilib ki, iki ölkə arasında hərbi əməkdaşlığın inkişafı regionda sülhün və təhlükəsizliyin qorunması üçün atılan mühüm addımdır.

Tədbirdə çıxış edən komitə üzvləri Sahib Alıyev, Elman Nəsirov, Nəsib Məhəməliyev, Sevil Mikayılova, Ramin Məmmədov, Ramil Həsən Azərbaycan və Türkiyə xüsusi təyinatlılarının təliminə dair Anlaşma Memorandumu barədə öz fikirlərini açıqlayıb, təlimlərin əhəmiyyətini qeyd ediblər. Bildirilib ki, Azərbaycan və Türkiyə strateji müttəfiqdirlər və belə sənədlərin qəbul edilməsi bu münasibətlərin dərinləşməsi baxımından çox önəmlidir.

Müzakirələrin sonunda “Azərbaycan Respublikası Hökuməti ilə Türkiyə Respublikası Hökuməti arasında Azərbaycan Ordusu və Türkiyə Silahlı Qüvvələrinin xüsusi təyinatlılarının təliminə dair” Anlaşma Memorandumunun təsdiq edilməsi haqqında qanun layihəsi Milli Məclisin plenar iclasında müzakirəyə tövsiyə olunub.

Onlayn iclasda komitə sədrinin müavini Sevinc Fətəliyeva, deputatlardan Nigar Arpadarai, Kamran Bayramov, Cavanşir Feyziyev, Tural Gəncəliyev, Azər Kərimli, Asim Mollazadə, Rasim Musabəyov və Sabir Rüstəmxanlı iştirak ediblər.

# Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib

Sentyabrın 15-də Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin iclası keçirilib.

Bu barədə AZƏRTAC-a Milli Məclisin Mətbuat və ictimaiyyətlə əlaqələr şöbəsindən məlumat verilib.

Bildirilib ki, əvvəlcə komitə sədri Tahir Mirkişili 2021-ci ilin yaz və növbədənkənar sessiyaları ərzində İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində görülən işlər barədə hesabatı təqdim edib.

Diqqətə çatdırıb ki, hesabat dövründə komitənin 24 iclası keçirilib, 94 məsələ, o cümlədən 90 qanun layihəsi, 2 rəy və Hesablama Palatasının hesabatı müzakirə olunaraq plenar iclasa tövsiyə edilib. Bundan başqa, İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi hesabat dövründə müxtəlif dövlət qurumları, ictimai təşkilatlar və sahibkarlarla görüşlər keçirib, real sektorun müxtəlif məsələləri müzakirə edilib. Eyni zamanda, komitənin ünvanına daxil olmuş ərizə və müraciətlərə baxılması sahəsində müntəzəm iş aparılıb, vətəndaşlar xüsusi karantin rejiminin tələblərinə uyğun şəkildə qəbul olunub, qaldırılan məsələlərlə bağlı müvafiq tədbirlər görülüb.

İclasda Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin 2021-ci ilin payız sessiyası üçün nəzərdə tutulmuş iş planı da müzakirə olunub. İş planına əsasən, qarşıdakı sessiyada “Lombardlar haqqında”, “Turizm haqqında”, “Dövlət rüsumu haqqında”, o cümlədən komitəyə daxil olacaq digər qanun layihələrinin müzakirəsi nəzərdə tutulub. T.Mirkişili qeyd edib ki, “Qiymətləndirmə fəaliyyəti haqqında”, “Qiymətli kağızlar bazarı haqqında”, “Müflisləşmə və iflas haqqında” qanunlar da yenidən işlənməli olacaq. Bundan başqa, komitə aidiyyəti qurumlarla, sahibkarlarla, qeyri-hökumət təşkilatlarının və ictimaiyyətin nümayəndələri ilə görüşlərin, dinləmələrin keçirilməsini planlaşdırıb.

Sonra komitə sədri iclasın gündəliyində olan qanun layihələrini də təqdim edib. Gündəliyin 3-cü və 4-cü məsələsi olan “Gömrük tarifi haqqında” qanunda və Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihələrinin oxşar xarakterdə olması qeyd edilib. Bildirilib ki, qanun layihələrində Qaradağ Sənaye Parkında tətbiq olunan gömrük rüsumlarından və ƏDV-dən azadolmanın daha beş il müddətinə uzadılması nəzərdə tutulub.

Gündəliyə çıxarılmış 5-ci məsələ - Gömrük Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) daxildə emal üçün xüsusi gömrük proseduru altında malların yerləşdirilməsinə görə təminatın məcburi olaraq təqdim edilməsinin ləğvini, həmin prosedurun fakültativ hal kimi müəyyən olunmasını nəzərdə tutur.

Bildirilib ki, Azərbaycan Respublikasının Mülki Məcəlləsində, “Müflisləşmə və iflas haqqında”, “İcra haqqında”, “Banklar haqqında”, “Teatr və teatr fəaliyyəti haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “İxrac məqsədli neft-qaz fəaliyyətinə xüsusi iqtisadi rejimin tətbiqi haqqında” və “Məşğulluq haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) isə icbari tibbi sığorta ilə bağlı hazırlanıb. Sənədə əsasən, müəssisə iflas etdiyi zaman məcburi ödənişlərin siyahısına icbari tibbi sığorta fonduna icbari tibbi sığorta haqları üzrə ödənilməli məbləğlər də əlavə olunub.

İclasda müzakirə olunan sonuncu qanun layihəsi “Valyuta tənzimi haqqında”, “Kredit ittifaqları haqqında”, “Banklar haqqında”, “Poçt haqqında”, “Mühasibat uçotu haqqında”, “Sığorta fəaliyyəti haqqında”, “Bank olmayan kredit təşkilatları haqqında”, “İnvestisiya fondları haqqında”, “Qiymətli kağızlar bazarı haqqında” və “Kredit büroları haqqında” qanunlarda dəyişiklik edilməsi barədə qanun layihəsi (birinci oxunuş) olub. Bildirilib ki, layihə “Mühasibat uçotu haqqında” qanunda dəyişikliklər edilməsi barədə 2018-ci il 4 may tarixli qanundan irəli gələn məsələlərin tənzimlənməsi məqsədilə hazırlanıb.

Müzakirə olunan məsələlərlə bağlı İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsi sədrinin müavini Əli Məsimli, komitə üzvləri Vahid Əhmədov, Vüqar Bayramov, Məşhur Məmmədov, Ziyad Səmədzadə, Aydın Hüseynov, Elnur Allahverdiyev, İqbal Məmmədov, Məzahir Əfəndiyev və Milli Məclis Aparatının İqtisadi qanunvericilik şöbəsinin müdiri Məhəmməd Bazıqov çıxış edərək fikirlərini bildiriblər, rəy və təkliflərini səsləndiriblər.

Deputatlar gündəlikdəki qanun layihələrini Milli Məclisin plenar iclasının müzakirəsinə tövsiyə ediblər.

İclasda deputatlar Mahir Abbaszadə, İmamverdi İsmayılov, Anar Məmmədov, Ağalar Vəliyev və digər rəsmi şəxslər iştirak ediblər.

# Türkiyə Prezidenti Azərbaycan Müdafiə Nazirliyinin rəhbər heyətini qəbul edib



Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Azərbaycan Respublikasının müdafiə naziri general-polkovnik Zakir Həsənovu və müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyevi qəbul edib.

AZƏRTAC xəbər verir ki, məlumatı Türkiyə Prezident Administrasiyası yayıb.

Bildirilir ki, Ankarada Prezident Administrasiyasında keçən qəbulda Türkiyə milli müdafiə naziri Hulusi Akar və Türkiyə Silahlı Qüvvələrinin Baş Qərargah rəisi, ordu generalı Yaşar Gülər də iştirak ediblər.

Xatırladaq ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov, müdafiə nazirinin birinci müavini - Azərbaycan Ordusunun Baş Qərargah rəisi general-leytenant Kərim Vəliyev və müdafiə nazirinin müavini - Hərbi Hava Qüvvələrinin komandanı general-leytenant Ramiz Tahirov Türkiyənin Konya şəhərində keçirilən “TurAz Şahini - 2021” birgə taktiki-uçuş təlimlərinin “Yüksəksəviyyəli müşahidəçi günü”ndə iştirak edib, təlimləri izləyiblər.

# Ceyhun Bayramov Avropa İttifaqının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi ilə görüşüb

Sentyabrın 15-də Azərbaycan Respublikası xarici işlər naziri Ceyhun Bayramov ilə Avropa İttifaqının (Aİ) Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi Toivo Klaar arasında görüş keçirilib.

Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildiriblər ki, görüş zamanı tərəflər bölgədəki cari təhlükəsizlik vəziyyəti, o cümlədən dövlət sərhədinin delimitasiya prosesi, kommunikasiyaların açılışı, infrastruktur layihələri və digər məsələlər ətrafında fikir mübadiləsi apardılar.

Nazir Ceyhun Bayramov üçtərəfli bəyanatların icrası ilə bağlı qarşı tərəfə məlumat verərək, bu xüsusda Ermənistanın vəziyyətin gərginləşdirilməsinə xidmət edən davranışı, əsassız iddialar və qeyd-şərtlərlə çıxış etməsinin qəbuledilməz olduğunu vurğulayıb.

Xüsusi nümayəndə Aİ-nin bölgədə sülh, inkişaf və rifahın təmin olunması mövqeyindən çıxış etdiyini xatırladaraq bunun üçün müvafiq dəstəyi göstərməyə hazır olduqlarını qeyd etdi.

Tərəflər həmçinin ikitərəfli əməkdaşlıq məsələləri, Azərbaycan və Aİ arasında yeni saziş üzrə aparılan danışıqlar, həmçinin iqtisadi sahədə əməkdaşlıq imkanlarını müzakirə etdilər.

# Qarşıya qoyulan döyüş tapşırıqları uğurla icra olunur

Türkiyə Respublikasının Konya şəhərində keçirilən “TurAz Şahini-2021” birgə taktiki-uçuş təlimlərində Azərbaycan və Türkiyənin hərbi təyyarələri müxtəlif epizodlar üzrə döyüş uçuşları həyata keçiriblər.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin planına əsasən şərti düşmənin qırıcı aviasiyasının hücumunu dəf etmək, hava hücumundan müdafiə vasitələrindən aldadıcı manevrlərlə yayınmaq və təyin olunan yerüstü hədəflərinə zərbələr endirmək tapşırıqları üzrə əməliyyat uçuşları yerinə yetirilib. Qarşıya qoyulan döyüş tapşırıqları hər iki ölkənin hərbi pilotları tərəfindən uğurla icra olunub.

Təlimlər davam edir.

# “Üç qardaş - 2021” beynəlxalq təlimi davam edir





Azərbaycan, Türkiyə və Pakistanın Xüsusi Təyinatlı Qüvvələrinin nümayəndələrinin iştirakı ilə keçirilən “Üç qardaş - 2021” beynəlxalq təlimi davam edir.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, təlimin növbəti mərhələsində xüsusi təyinatlı bölmələr şərti düşmənin arxasına quru, hava, su yolu ilə keçid, pusqu, basqın, eləcə də amfibiya və hava desant hazırlığı üzrə məşğələlərdə səmərəli təcrübə mübadiləsi etməklə yanaşı, həm də qarşıya qoyulan tapşırıqları müvəffəqiyyətlə yerinə yetiriblər.

# İdarələrarası Mərkəzin “Şəhərsalma məsələləri üzrə” İşçi Qrupunun onlayn iclası olub

Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin “Şəhərsalma məsələləri üzrə” İşçi Qrupunun növbəti onlayn iclası keçirilib.

AZƏRTAC xəbər verir ki, İşçi Qrupa daxil olan aidiyyəti dövlət qurumlarının nümayəndələrinin iştirak etdiyi toplantıda işğaldan azad edilmiş ərazilərin planlaşdırma sənədlərinin hazırlanması, regiondakı yaşayış məntəqələrinin yenidən qurulması, zəruri infrastrukturun yaradılması və yerli əhalinin doğma torpaqlarına qayıdışı istiqamətində aparılan işlərin icra vəziyyəti haqqında məlumat verilib. Bildirilib ki, planlaşdırma sənədlərinin təyin olunmuş müddətdə hazırlanaraq başa çatdırılması üçün işğaldan azad olunmuş ərazilərdə müvafiq qurumlar tərəfindən hazırda görülən və planlaşdırılan işlərin əlaqələndirilməsi, məlumat mübadiləsi vacib məsələlərdəndir.

İclasda Ağdam şəhərinin Baş planına əsasən həyata keçirilən layihələr və qarşıda duran vəzifələr, o cümlədən digər şəhərlərin Baş planlarının hazırlanması istiqamətində müzakirələr aparılıb. Bununla yanaşı, İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin Qarabağ Rəqəmsal Geoinformasiya sisteminə inteqrasiya olunmalı qurumlar üzrə hesabatı təqdim edilib.

Onlayn toplantıda aidiyyəti dövlət qurumlarının nümayəndələri tərəfindən mühəndis kommunikasiya və nəqliyyat infrastrukturu layihələri, digər sahələrdə görülən işlər ətrafında fikir mübadiləsi aparılıb, məsələlərin birgə həlli yolları təhlil edilib.

Qeyd edək ki, Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

# Azərbaycan - Türkiyə qardaşlığının şərəf salnaməsi

## Ölkəmizdəki siyasi partiyaların rəhbərləri və nümayəndələri Bakıdakı “Türk şəhidliyi” abidəsini ziyarət ediblər

Sentyabrın 15-də Bakının erməni-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü Azərbaycan paytaxtında və respublikamızın bölgələrində bir sıra tədbirlərlə qeyd edilib.



AZƏRTAC xəbər verir ki, respublikamızda fəaliyyət göstərən siyasi partiyaların rəhbərləri və nümayəndələri bu münasibətlə “Türk şəhidliyi” abidəsini ziyarət ediblər.

Ziyarətçilər “Türk şəhidliyi” abidəsinin önünə gələrək Azərbaycanın azadlığı və istiqlaliyyəti uğrunda canlarından keçən türk qardaşlarımızın xatirəsini bir dəqiqəlik sükutla yad ediblər.

Siyasi partiya rəhbərləri və nümayəndələri Azərbaycan -Türkiyə qardaşlığının əbədi və sarsılmazlığını əks etdirən bu məzarlıqda uyuyan türk şəhidlərinin qəhrəmanlığını və fədakarlığını dərin hörmət və ehtiramla anıb, məzarları üstünə qərənfillər düzüblər.

Xatırladaq ki, 1918-ci il sentyabrın 15-də Nuru paşanın rəhbərlik etdiyi Qafqaz İslam Ordusu və Azərbaycan korpusu Bakıya daxil olaraq şəhəri erməni-bolşevik işğalından azad edib. Bakıya qəti hücumda iştirak etmək üçün təxminən 8 min Osmanlı əsgəri və Azərbaycanın 7 min nəfərədək yerli qüvvəsi toplanıb. Bu hərbi əməliyyatla həm Azərbaycanın müstəqilliyi təmin olunub, həm də ermənilərin və bolşeviklərin Bakı və ətraf rayonlardakı ağalığına son qoyulub. Bu tarixi hadisədən sonra sentyabrın 17-də Azərbaycan Xalq Cümhuriyyəti hökumətinin paytaxtı Gəncədən Bakıya köçürülüb.

## Türkiyənin ölkəmizdəki səfirliyində Bakının azad edilməsinin 103-cü ildönümü münasibətilə tədbir olub

Sentyabrın 15-də Bakının Qafqaz İslam Ordusu tərəfindən işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə Türkiyənin Azərbaycandakı səfirliyində tədbir keçirilib.



AZƏRTAC xəbər verir ki, tədbir şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad edilməsi ilə başlayıb.

Sonra Azərbaycan və Türkiyənin Dövlət himnləri səsləndirilib.

Tədbirdə Türkiyənin Baş ombudsmanı Şərəf Malkoç, Azərbaycan Milli Məclisinin deputatları da iştirak ediblər.

Tədbirdə çıxış edən səfir Cahit Bağçı Türkiyə-Azərbaycan qardaşlığından danışıb, 15 sentyabr tarixinin əhəmiyyətindən söz açıb.

İslam Əməkdaşlıq Təşkilatı (İƏT) Ombudsmanlar Assosiasiyasının prezidenti, Türkiyənin Baş Ombudsmanı Şərəf Malkoç isə bildirib ki, Nuru paşanın gəlişi ilə Azərbaycan gəncləri, Azərbaycan Silahlı Qüvvələri birləşərək Bakını işğaldan azad ediblər. Bu gün Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan və Azərbaycan Prezidenti İlham Əliyevin sıx qardaşlıq münasibətlərindən narahat olanlar var. Prezidentlərimizin bu münasibətləri Türkiyədəki türklərlə Azərbaycandakı qardaşlarımızın əlaqələrini yaxşılaşdırır. Zəfərlər Qarabağda olduğu kimi, sadəcə, silahla qazanılmır. Dayanıqlı inkişafı davam etdirmək üçün onu sosial, iqtisadi platformalarda dəstəkləmək lazımdır. Biz İslam Əməkdaşlıq Təşkilatı Ombudsmanlar Assosiasiyası, Türkiyə Ombudsmanlığı olaraq bu əməkdaşlığı inkişaf etdiririk.

Türkiyə və Azərbaycanın 103 il əvvəlki ölkələr olmadığını diqqətə çatdıran Ş.Malkoç deyib: “O vaxt türk və İslam dünyaları tənəzzül dövrünü yaşayırdı. İndi isə Azərbaycan və Türkiyənin dostluğu sayəsində türk və islam dünyaları inkişafa doğru gedir. Bizim qarşımızda böyük hədəflər var. Dünyada müharibələr gedir, insan haqları pozulur. Dünya yeni bir düzən gözləyir. Bu da mərhəmətə, şəfqətə əsaslanır. Bu anlayışın toxumlarını Azərbaycanda, Türkiyədə görürük.

Milli Məclisin Beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsinin sədri Səməd Seyidov diqqətə çatdırıb ki, Azərbaycan bu gün ilk dəfə bu əlamətdar günü ərazi bütövlüyünü bərpa etmiş ölkə kimi qeyd edir.

Milli Məclisin deputatları Qənirə Paşayeva və Məlahət İbrahimqızı Nuru paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun Bakını, Silahlı Qüvvələrimizin isə Qarabağı azad etməsi ilə bağlı geniş maarifləndirmə işlərinin aparılmasına, filmlərin çəkilməsinə ehtiyac olduğunu bildiriblər. Eyni zamanda, qeyd edilib ki, 15 sentyabr Azərbaycanın bolşevik işğalından azad olunduğu tarixdir. Bu gün isə Azərbaycan-Türkiyə qardaşlığı dünyaya nümunədir.

Tədbir digər çıxışlarla davam edib.

## *Tahir BUDAQOV:* “Azərbaycan və Türkiyənin mənəvi-siyasi birliyi bütün dünyaya nümunədir”

### İqtidar partiyaları arasında münasibətlər heç vaxt bu cür güclü və yüksək səviyyədə olmayıb

Dünyada Azərbaycan ilə Türkiyə qədər bir-birinə yaxın ölkələr yoxdur. Milli dəyərlər və tarixi ənənələr üzərində təşəkkül tapmış bu qardaşlıq münasibətləri bənzəri olmayan birlik və həmrəylik nümunəsidir. 1918-ci il sentyabrın 15-də Bakının erməni-daşnak və bolşevik birləşmələrinin işğalından azad olunması da ortaq şanlı tariximizin qürurverici səhifələrindən biridir. Ümumiyyətlə, 15 sentyabr tarixi Azərbaycan xalqı üçün çox əlamətdar bir gündür. 103 il bundan əvvəl Nuru paşanın komandanlıq etdiyi Qafqaz İslam Ordusu Azərbaycan Xalq Cümhuriyyətinin ordusu ilə birlikdə Bakı şəhərini bolşevik-daşnak işğalından azad ediblər. Bundan iki gün sonra isə Xalq Cümhuriyyətinin paytaxtının Gəncədən Bakı şəhərinə köçürülməsi tariximizdə böyük hadisədir. Bu hadisə göstərdi ki, Azərbaycan-Türkiyə dostluğu və qardaşlığı dərin tarixi köklərə əsaslanır. “Türk şəhidliyi” abidəsini ziyarət etmək, şəhidlərin əziz xatirəsinə ehtiram göstərmək bizim mənəvi borcumuzdur. Bakının daşnak-bolşevik qüvvələrindən azad edilməsinin 103-cü ildönümü münasibətilə bütün xalqımızı təbrik edirəm.



AZƏRTAC xəbər verir ki, bu fikirləri Yeni Azərbaycan Partiyası (YAP) Sədrinin müavini-Mərkəzi Aparatın rəhbəri Tahir Budaqov ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların nümayəndələrinin “Türk şəhidliyi” abidəsini ziyarəti zamanı jurnalistlərə açıqlamasında deyib.

Bakının işğaldan azad edilməsində 1130 türk əsgərinin şəhid olduğunu vurğulayan Tahir Budaqov bildirib: “Ümumilikdə Azərbaycan ərazisində o zaman daşnak-bolşevik qüvvələri ilə döyüşlərdə 5 mindən çox türk əsgəri öz canını qurban verib. Bu fədakarlıq Azərbaycan xalqının yaddaşına əbədi həkk olunub və biz hər zaman türk şəhidlərinin xatirəsini uca tuturuq. Bütövlükdə, 1918-ci il sentyabrın 15-də Bakının erməni-daşnak və bolşevik birləşmələrinin işğalından azad olunması da ortaq şanlı tariximizin qürurverici səhifələrindən biridir. Xalq Cümhuriyyətinin hökuməti tərəfindən 1919-cu ildə bu ərazidə “Türk şəhidliyi” abidəsinin bünövrəsi qoyulsa da, 1920-ci ilin aprel ayında bolşevik işğalı nəticəsində cümhuriyyətin süqutu bu işin başa çatdırılmasına imkan vermədi. Lakin Azərbaycan ikinci dəfə müstəqilliyini elan etdikdən sonra abidə ucaldıldı. Bu abidə Azərbaycan-Türkiyə dostluq və qardaşlığının bir rəmzidir. “Türk şəhidliyi” abidəsi xalqımız tərəfindən böyük hörmət və ehtiramla yad edilən məkana çevrilib”.

Tahir Budaqovun sözlərinə görə, 102 ildən sonra - İkinci Qarabağ müharibəsində Türkiyə dövləti və xalqı Azərbaycanın öz torpaqlarını erməni işğalından azad olunmasına güclü mənəvi və siyasi dəstək verdi. Türkiyə Vətən müharibəsində Azərbaycanla bir olduğunu bütün dünyaya nümayiş etdirdi. Azərbaycan xalqı qardaş dəstəyini hər zaman çox yüksək qiymətləndirir, “bir millət, iki dövlət” fəlsəfəsinə əsaslanan münasibətlərin inkişafından böyük məmnunluq ifadə edir.

Azərbaycan-Türkiyə münasibətlərinin bu gün strateji müttəfiqlik zirvəsinə yüksəldiyini bildirən YAP Sədrinin müavini qeyd edib: “Bir millətin iki dövləti olan Azərbaycan və Türkiyə arasında dostluğa, qardaşlığa və strateji tərəfdaşlığa əsaslanan çoxşaxəli, milli maraqlara cavab verən münasibətlər bu gün ən yüksək zirvədədir və heç vaxt indiki qədər möhkəm - güclü olmayıb. Azərbaycan və Türkiyə prezidentləri İlham Əliyevlə Rəcəb Tayyib Ərdoğanın şəxsi dostluq münasibətləri, qardaşlığı bütün sahələrdə əməkdaşlığa, görülən işlərə öz töhfəsini verməkdədir. İki ölkə başçısının siyasi iradəsi tərəflər arasında iqtisadi, hərbi-texniki, mədəni-humanitar və digər istiqamətlərdə münasibətlərin dinamik inkişafını təmin edir. Fəal siyasi dialoq şəraitində iqtisadi əlaqələrin genişlənməsi iki ölkənin milli maraqlarına xidmət edən mühüm strateji amildir. Türkiyə Azərbaycanın əhəmiyyətli ticarət tərəfdaşıdır, ölkəmizin xarici ticarət dövriyyəsində və ixracında, eləcə də idxal əməliyyatlarında mühüm yer tutur. Bununla yanaşı, qarşılıqlı investisiya qoyuluşu iqtisadi münasibətlərin səmərəliliyini artırır. Digər tərəfdən, Azərbaycan-Türkiyə münasibətlərində hərbi-texniki əməkdaşlıq da vacib istiqamətlərdən biridir. Xüsusilə də müdafiə sənayesi sahəsində intensiv əlaqələrin və işbirliyinin yaradılması strateji önəm daşıyır. Bütövlükdə isə, iki ölkənin hərbi-strateji əməkdaşlığı bölgədə sülh və təhlükəsizliyin təmin olunması baxımından olduqca əhəmiyyətlidir. Cari il iyunun 16-da Şuşa Bəyannaməsinin imzalanması isə tarixi hadisə kimi müttəfiqlik münasibətlərinin yeni səviyyəyə yüksəlməsini şərtləndirib. Şuşa Bəyannaməsinin imzalanmasından sonra görülən işlər göz önündədir. Bu gün Azərbaycanın güclü və müzəffər ordusu var. Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə ordumuzun daha da gücləndirilməsi işi davam etdirilir. Türkiyə bu məsələdə öz dəstəyini göstərir. Son zamanlar keçirilən birgə hərbi təlimlər də bunu nümayiş etdirir. Həmçinin Türkiyə şirkətləri işğaldan azad olunmuş ərazilərimizin bərpasında da yaxından iştirak edir. Bütövlükdə, Şuşa Bəyannaməsindən irəli gələn vəzifələrin icra edilməsi ilə faktiki olaraq Azərbaycanla Türkiyə Cənubi Qafqazda yeni reallıqlar yaradıb. Yeni reallıqlar regionda təhlükəsizliyin təmin olunmasına, əməkdaşlığa və inkişafa xidmət edir”.

Tahir Budaqov yeni mərhələdə Azərbaycan və Türkiyənin strateji təşəbbüslərinin regional inkişafa və təhlükəsizliyə xidmət etdiyini diqqətə çatdırıb. “Postkonflikt mərhələsində Azərbaycan-Türkiyə strateji müttəfiqliyi bölgədə sülh və təhlükəsizlik mühitinin möhkəmlənməsinə, çoxtərəfli qarşılıqlı faydalı əməkdaşlığın dərinləşməsinə öz töhfəsini verəcək. Bu isə tərəqqi və rifah vəd edir”, - deyən Tahir Budaqov əlavə edib ki, Azərbaycan və Türkiyənin mənəvi-siyasi birliyi bütün dünyaya nümunədir.

YAP Sədrinin müavini - Mərkəzi Aparatın rəhbəri iki ölkənin hakim partiyaları arasında münasibətlərin inkişafının da müstəsna əhəmiyyət daşıdığını vurğulayıb. O bildirib ki, YAP-AK Parti əlaqələrinin intensiv xarakter daşıması Azərbaycan-Türkiyə münasibətlərinin daha da möhkəmlənməsinə mühüm töhfədir. T.Budaqov vurğulayıb: “Ümumiyyətlə, Azərbaycan-Türkiyə münasibətləri yalnız dövlətlər arasında deyil, iki ölkənin hakim partiyası - Yeni Azərbaycan Partiyası ilə Ədalət və İnkişaf Partiyası (AK Parti) arasında əlaqələr də keyfiyyətcə yeni mərhələyə qədəm qoyub. Biz siyasi partiyalar olaraq dövlət başçılarının qardaşlıq münasibətlərini örnək götürərək əlaqələrimizi daha da gücləndirməyi, inkişaf etdirməyi qarşıya məqsəd qoymuşuq. Bu ilin iyun ayında mənim rəhbərliyimlə Türkiyədə səfərdə olan YAP nümayəndə heyəti AK Partinin yüksəksəviyyəli rəsmiləri ilə görüşlər keçirib, eyni zamanda tarixdə ilk dəfə olaraq iki partiya arasında Əməkdaşlıq Protokolu imzalanıb. Səfər zamanı nümayəndə heyətimiz Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən qəbul edilib. Bu səfər çox səmərəli olub və bizim qarşılıqlı münasibətlərimiz, gələcək əməkdaşlığımız üçün güclü hüquqi, institusional baza formalaşdırıb, siyasi əlaqələrin perspektiv inkişafı üçün dönüş nöqtəsi olub. İyul ayında isə AK Parti sədrinin birinci müavini Numan Kurtulmuşun başçılığı ilə geniş nümayəndə heyəti ölkəmizə səfər etdi. AK Partinin nümayəndə heyəti Azərbaycan Prezidenti İlham Əliyev tərəfindən qəbul olunub. Bundan sonra bizim birgə fəaliyyətimizin dəqiq konturları müəyyən edilib. Eyni zamanda, bu fəaliyyət yalnız siyasi partiyaları əhatə etməyəcək, eləcə də ölkələrimizin vətəndaş cəmiyyəti institutları, müxtəlif ictimai-siyasi təsisatları arasında, beynəlxalq platformalarda əməkdaşlığı da özündə ehtiva edəcək. Gələcəkdə bu istiqamətlərdə işlərimiz davam edəcək”.

## Bakının işğaldan azad edilməsinin 103-cü ildönümü münasibətilə hərbçilərin paytaxt küçələrində yürüşləri keçirilib

Sentyabrın 15-də Bakının erməni-bolşevik işğalından azad edilməsinin 103-cü ildönümü münasibətilə Bakının mərkəzi küçələrində və meydanlarında “Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır” devizi altında hərbi orkestrlərin müşayiəti ilə hərbi qulluqçuların yürüşləri keçirilib.







AZƏRTAC xəbər verir ki, Bakıda keçirilən yürüşlərə iki istiqamətdən - Şəhidlər xiyabanından və 28 May küçəsindəki Səməd Vurğun bağından start verilib.

Əvvəlcə Azərbaycan Respublikası Müdafiə Nazirliyinin bir qrup hərbi qulluqçusunun iştirakı ilə Şəhidlər xiyabanı və “Türk şəhidliyi” ziyarət olunub. Abidələr qarşısına əklil və gül dəstələri qoyularaq şəhidlərin xatirəsi ehtiramla yad edilib.

Yürüşlərdən əvvəl Türkiyənin və Azərbaycanın Dövlət himnləri səsləndirilib.

Sonra hərbi qulluqçular təyin olunan marşrutlar üzrə yürüşə başlayıblar. Şəhidlər xiyabanından başlayan birinci istiqamət üzrə yürüş metronun “İçərişəhər” stansiyası, İqtisadiyyat Universitetinin binası, Qoşa qala qapısı və Azneft dairəsini əhatə etməklə Bəhram Gur heykəlinin ətrafında yekunlaşıb. 28 May küçəsindəki Səməd Vurğun bağından start götürən ikinci istiqamət üzrə yürüşdə hərbi orkestr və şəxsi heyət Bülbül, Neftçilər prospektləri, Azadlıq meydanı marşrutu üzrə hərəkət ediblər.

Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin 150 nəfər şəxsi heyətinin iştirakı ilə ümumilikdə üç qrup hərbi orkestrin müşayiəti ilə həmin istiqamətlərdə yürüş edib.

Qeyd edək ki, 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu şiddətli döyüşlərdən sonra Bakı şəhərini daşnak-bolşevik hərbi birləşmələrindən azad edib. Xalqımız Azərbaycanı daşnak-bolşevik təcavüzündən xilas edən türk şəhidlərinin xatirəsini daim ehtiramla anır. Bu ehtiramın ən böyük nümunəsi Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıdakı Şəhidlər xiyabanında şəhid türk əsgərlərinin xatirəsinə ucaldılan abidə kompleksidir.

## Gəncədə Bakının işğaldan azad olunmasının 103-cü ildönümü münasibətilə hərbi yürüş

Gəncədə hərbi orkestrin müşayiəti ilə hərbi qulluqçuların təntənəli yürüşü keçirilib.

AZƏRTAC xəbər verir ki, Bakı şəhərinin işğaldan azad olunmasının 103-cü ildönümü münasibətilə Gəncənin Heydər Əliyev prospektində “Azərbaycan-Türkiyə qardaşlığı əbədi və sarsılmazdır” devizi altında hərbi orkestrin müşayiəti ilə hərbi qulluqçuların yürüşü olub.

Şəhər icra hakimiyyətinin nümayəndələri, Vətən müharibəsi qaziləri, rəsmi şəxslər və şəhər sakinləri əllərində Azərbaycan və Türkiyənin bayraqlarını dalğalandıraraq yürüşü izləyiblər.

Yürüşü fəxrlə seyr edən Vətən müharibəsi qazisi Bayram Kərimov bildirib ki, əsrlərboyu Azərbaycan və türk xalqları həmişə bir-birinə dəstək olub, sıx əməkdaşlıq ediblər. “Bu əlamətdar gündə burada Vətən müharibəsi qazisi kimi qürurla iştirak edirəm. Qardaş ölkə ilə münasibətlərimizin qədim tarixi var. Türkiyə və Azərbaycan ən çətin dövrlərdə belə bir-birinə qardaş dəstəyi nümayiş etdiriblər.





Bu münasibətlərimiz hazırda Prezident İlham Əliyevin və Prezident Rəcəb Tayyib Ərdoğanın rəhbərlikləri altında ən yüksək səviyyədə inkişaf etməkdədir”, - deyə B.Kərimov vurğulayıb.

Qeyd edək ki, 1918-ci il sentyabrın 15-də Qafqaz İslam Ordusu şiddətli döyüşlərdən sonra Bakı şəhərini daşnak-bolşevik hərbi birləşmələrindən azad edib. Xalqımız Azərbaycanı daşnak-bolşevik təcavüzündən xilas edən türk şəhidlərinin xatirəsini daim ehtiramla anır.

# R E G İ O N L A R





# İşğaldan azad edilən ərazilərin su təminatı bərpa olunur

## Bunun üçün həm yerüstü, həm də yeraltı su mənbələrindən istifadə edilir

*Əvvəli 1-ci səh.*

Su çatışmazlığı ilə yanaşı, çayların, xüsusilə transsərhəd çaylarının qonşu Ermənistan və Gürcüstanın ərazisində çirklənməsi də ölkədə sosial-ekoloji gərginliyi gücləndirən əsas amildir. Bir çox illərdir ki, həmin ölkələrin ərazisindən axan Kür, Araz, Oxçuçay və digər transsərhəd çayları yüksək dərəcədə çirklənmiş halda Azərbaycan ərazisinə daxil olur. Hətta Ermənistandan axan Oxçuçay kritik dərəcədə çirkləndiyinə görə ona "ölü çay" da deyilir.

Bütün bunlar nəzərə alınaraq ölkəmizdə mövcud su çatışmazlığını aradan qaldırmaq istiqamətində mühüm işlər görülür, o cümlədən suya olan tələbatın ödənilməsi məqsədilə dövlət tərəfindən bu sahəyə milyardlarla manat vəsait ayrılır. Bu hesaba birbaşa dövlət başçısının tapşırığına əsasən, Şəmkirçay, Tovuzçay və Taxtakörpü kimi nəhəng su anbarları yaradılıb, 20-dən çox kiçik və ortahəcmli su anbarları istifadəyə verilib.

Nəticədə yüz minlərlə hektar əkin sahəsinin suvarılması təmin olunub və hazırda həmin sahələrdən yüksək məhsul götürülür.

İndi isə həm də işğaldan azad edilmiş ərazilərin su təminatının bərpası istiqamətində tədbirlər həyata keçirilir. "Ot Kökləri və İnsan Təhlükəsizliyi" üzrə Qrant Yardımı Proqramı çərçivəsində "Sahibkarlığın və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu" tərəfindən Füzuli rayonu Şükürbəyli kəndində içməli su təchizatının yaxşılaşdırılması üçün artezian quyusu qazılaraq transformator, "tap-stand", 5 supaylama nöqtəsi və su çəni inşa edilib. Yeni istifadəyə verilən quyudan kəndin 1600 sakini yararlana biləcək. Bundan əlavə, Meliorasiya və Su Təsərrüfatı ASC-nin Ağdam Mexaniki Suvarma İdarəsi rayonun 35 min 400 hektar əkin sahəsinin suvarılması, eləcə də 75 min nəfər əhalinin içməli və təsərrüfat suyuna olan tələbatının ödənilməsi üçün işlərə başlayıb. Artıq 28 min 249 hektar sahə subartezian quyuları, 7151 hektar sahə isə öz axını və nasos stansiyaları ilə suvarılır. Məlumat üçün bildirək ki, idarənin balansında 986 subartezian quyusu, 4 nasos stansiyası, 11 kəhriz, 4 suyığıcı göl, 365 kilometr suvarma kanalı, 192 hidrotexniki qurğu var. Bu imkanlar hesabına əkinlərin suvarma suyu ilə təminatının yaxşılaşdırılması üçün istismarı dayanmış və suyu azalmış subartezian quyuları bərpa edilir, Prezidentin sərəncamlarına əsasən, yeni quyular qazılır. Təkcə 5 ildə rayonda 207 subartezian quyusu qazılıb istehlakçıların istifadəsinə verilib.

Rayondakı subartezian quyularının, nasosların və hidroqurğuların təmiri də diqqət mərkəzində saxlanılır, eyni zamanda, kanallar ilboyu lildən təmizlənir. Məsələn, cari ilin ötən dövrü suvarma kanallarında 256 min kubmetr lildən təmizləmə işləri görülüb, 42 hidrotexniki qurğu, 480 nasos, 3 nasos stansiyasında təmir işləri aparılıb. Həyata keçirilən tədbirlər nəticəsində əkinlərin suvarma suyu ilə təminatında heç bir çətinlik yaranmayıb.

Ağdamın işğaldan azad edilən ərazilərində də su təsərrüfatı obyektlərinin bərpasına başlanılıb. Yeri gəlmişkən qeyd edək ki, rayonun işğaldan azad edilmiş ərazilərində 327 subartezian quyusu, Xaçınçay və Ağdamkənd su anbarları, 396 kilometr magistral kanallar, 427 hidrotexniki qurğu, həmçinin arxlar, kiçik su tutarları var. Artıq Xaçınçay su anbarı üzrə smeta-layihə işləri yekunlaşır. Su anbarının qarşısındakı 14 kilometr suvarma kanalı da minalardan təmizlənib. Üstəlik, bir subartezian quyusu bərpa edilib ki, onun da vasitəsilə 35 hektar ərazi suvarma suyu ilə təmin olunacaq.

Qarabağ bölgəsində su təminatı sahəsində xüsusi rolu olan Suqovuşan bəndində də təmir işlərinə başlanılıb. Birinci mərhələdə Suqovuşan bəndinin mexaniki avadanlıqları, suburaxıcı qurğuları, seqment qapıları, eləcə də 5,2 kilometr uzunluğunda magistral kanal təmir olunacaq. İkinci mərhələdə uzunluğu 22 kilometr olan Tərtərçay Sol Sahil, üçüncü mərhələdə isə uzunluğu 70 kilometr olan Tərtərçay Sağ Sahil kanalları təmir və bərpa ediləcək. Təmir işlərinin birinci mərhələsi bu ilin sonunadək başa çatdırılacaq. İkinci mərhələnin bu il başlanması və gələn il yekunlaşdırılması nəzərdə tutulur. Üçüncü mərhələ üzrə də işlər aparılır. Təmir-bərpa işləri nəticəsində ümumilikdə 96 min 200 hektar əkin sahəsinin su təminatı yaxşılaşacaq.

Qeyd edək ki, 1976-cı ildə istismara verilmiş Suqovuşan su anbarı Tərtərçay və Turaqaçay çaylarından daxil olan sular hesabına formalaşır. Ümumi həcmi 5,86 milyon kubmetr olan su anbarından Tərtər, Ağdərə, Goranboy, Yevlax, Bərdə, Ağdam, Ağcabədi rayonlarının ümumilikdə 96 min 217 hektar torpaq sahələrinin suvarma suyu ilə təmin olunması nəzərdə tutulmuşdu. Lakin 28 il əvvəl baş vermiş Qarabağ müharibəsi nəticəsində Suqovuşan su anbarı işğal olunduğundan torpaq sahələrinin su təminatında ciddi çətinliklər yaranmışdı. Bununla yanaşı, suyun buraxılmaması çayda kəskin ekoloji problemlərə səbəb olmuşdu. Suqovuşanın işğaldan azad edilməsi ərazidə ekoloji tarazlığın bərpası ilə yanaşı, uzun illərdən bəri su təminatı çətin olan ərazilərə suyun verilməsinə, burada gələcəkdə əkinlərin davamlı aparılmasına, su qıtlığının aradan qaldırılmasına, kənd təsərrüfatında yüksək məhsuldarlığın əldə edilməsinə təminat yaratmışdır.

***Rüstəm KAMAL,***
***"Azərbaycan"***

## Tərtərdə "Torpağı Vətən edənlər" layihəsinə başlanılıb

Bərdə Regional Mədəniyyət İdarəsinin Tərtər rayon nümayəndəliyi "Torpağı Vətən edənlər" layihəsinə başlayıb.

Layihənin məqsədi Vətən müharibəsində şəhid olan Tərtər igidlərinin valideynləri və övladları ilə Tərtər rayon Heydər Əliyev Mərkəzində görüş keçirmək, şəhidlərimizin keçdiyi həyat və döyüş yolunu, göstərdikləri qəhrəmanlıq nümunələrini gənclər və yeniyetmələrə aşılamaq, təbliğ etməkdir.

AZƏRTAC xəbər verir ki, layihənin ilk qonağı Vətən müharibəsi qəhrəmanı şəhid polkovnik-leytenant Anar Əliyevin valideynləri olub. Görüşdə Tərtər rayon Cümə məscidinin axundu, rayon icra hakimiyyətinin, Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rayon şöbəsinin, Azərbaycan Vətən müharibəsi Veteranları Təşkilatının nümayəndələri, qazilər iştirak ediblər.

Əvvəlcə Regional İdarənin Tərtər rayon nümayəndəliyi tərəfindən şəhid polkovnik-leytenant Anar Əliyev haqqında hazırlanmış videoçarx nümayiş olunub.

Anar Əliyevin keçdiyi döyüş yolundan, göstərdiyi şücaətdən söhbətlər açılıb, rayon Mədəniyyət Mərkəzinin dərnək üzvləri şəhid haqqında şeirlər səsləndiriblər.

Sonda Mədəniyyət İşçiləri Həmkarlar İttifaqının Tərtər rayonu üzrə komitəsi tərəfindən şəhidin valideynlərinə hədiyyələr təqdim olunub.

Şəhidin atası Vaqif Əliyev polkovnik-leytenant Anar Əliyevin keçdiyi döyüş yolundan bəhs edən kitabları tədbir iştirakçılarına paylayıb.

## Subsidiya alınması üçün sığortalanacaq bitkilərin siyahısı təsdiqlənib

Azərbaycanın kənd təsərrüfatı sektorunda subsidiyalarının alınması üçün sığortalanması tələb olunan bitkilərin siyahısı təsdiqlənib.

Xatırladaq ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev 2019-cu il 27 iyun tarixli fərmanla təsdiq edilmiş "Kənd təsərrüfatı məhsulları istehsalının subsidiyalaşdırılması Qaydası"nda dəyişiklik edilməsi haqqında fərman imzalamışdır. Fərmana əsasən, ölkənin ərzaq təhlükəsizliyinin təmin edilməsində mühüm rola malik olan bitkilər üzrə 10 hektardan artıq əkin sahələrinə əkin subsidiyaları 3 il ərzində aqrar sığorta olunmaqla veriləcək.

Aqrar Subsidiya Şurasının qərarına əsasən, qarşıdakı mövsümdə sözügedən tələb 7 bitkiyə aid olacaq. Bunlar - arpa, buğda, çəltik, qarğıdalı, fındıq, çay və limondur. Sığortalanacaq məhsulların siyahısı hər il Aqrar Subsidiya Şurası tərəfindən müəyyən ediləcək. Adı çəkilən bitki növlərinin 10 hektardan artıq əkin sahəsi üçün subsidiyalar aqrar sığorta müqaviləsi imzalanmaqla ayrılacaq. Qeyd edək ki, sözügedən bitkilər ölkənin ərzaq təhlükəsizliyi və qida ilə təminatı, o cümlədən heyvandarlığın inkişafı və ixrac imkanları üçün mühüm rola malikdir. Eləcə də bu bitkilərin becərilməsi ilə minlərlə fermer, sahibkar, yüz minlərlə bölgə əhalisi məşğul olur. Həmin sahələrin sığortalanması ölkənin ərzaq təhlükəsizliyi ilə yanaşı, bu sahədə təhlükəsiz biznes mühiti yaradacaq, fermerlərin gəlirlərini və qazancını qoruyacaq, eləcə də bölgə əhalisinin davamlı məşğulluğuna dəstək verəcək.

Xatırladaq ki, yeni tələb ölkə üzrə təsərrüfatların sayca cüzi hissəsini əhatə edir. Ölkə üzrə orta rəqəmləri əsas götürsək, bir hektar taxıl sahəsinin sığorta haqqı regionlar üzrə əsasən 8-12 manat arasında dəyişir ki, bu da dövlət tərəfindən fermerlərə ödənilən əkin subsidiyasının cüzi hissəsini təşkil edir və fermerlər üçün əlavə ciddi maliyyə öhdəliyi yaratmayacaq.

Azərbaycanda tətbiq edilən aqrar sığorta mexanizmi əkin sahələrini əsas risklərdən - təbii fəlakət, fırtına, qasırğa, dolu, yanğın və üçüncü şəxslərin hərəkətlərindən qoruyur. Əlavə ödəniş müqabilində əkin sahələrini bitki xəstəlikləri və ziyanvericilər, eləcə də xüsusi təhlükəli ziyanvericilərin vurduğu zərərdən də sığortalamaq mümkündür. Aqrar sığorta qaydalarına əsasən, əkin sahələrinin sığortası üzrə hesablanmış sığorta haqqının 50%-ni fermerlərə dəstək məqsədilə dövlət ödəyir. Qısa müddətdə ölkənin əksər rayonunda aqrar sığorta geniş tətbiq edilir. Artıq sığorta hadisələri üzrə ödənişlərin verilməsinə də başlanılıb.

## Kartof və tərəvəz istehsalı artıb

Sentyabr ayının 1-nə kimi tarlalardan 828,1 min ton və ya ötən ilin müvafiq dövrünə nisbətən 9,3 faiz çox kartof, 1 milyon 423,8 min ton (6,1 faiz çox) tərəvəz toplanıb.

Dövlət Statistika Komitəsindən verilən məlumata əsasən, həmin müddət ərzində 446,8 min ton (3,5 faiz çox) bostan məhsulları, 431,7 min ton (8,4 faiz çox) meyvə və giləmeyvə, 71,8 min ton (13 faiz çox) üzüm, 968,8 ton (27,6 faiz çox) yaşıl çay yarpağı, 22 min ton (3,7 faiz az) günəbaxan, 52,4 min ton (2,4 dəfə çox) şəkər çuğunduru və 3,9 min ton (4,7 faiz çox) tütün yığılıb.

Sentyabrın 1-nə kimi qarğıdalı da daxil olmaqla, 3 milyon 127,2 min ton və ya ötən ilin eyni dövrü ilə müqayisədə 5,2 faiz çox dənli və dənli paxlalı bitkiçilik məhsulları toplanıb.

## Dağ kəndi suvarma suyu ilə təmin olunub

Qusar rayonunun dağlıq yaşayış məntəqələrindən olan Urva kəndi ilk dəfə suvarma suyu ilə təmin edilib.

Rayon Suvarma Sistemləri İdarəsindən AZƏRTAC-a bildirilib ki, bu məqsədlə Urva elektrik nasos stansiyası istifadəyə verilib. Bir aqreqatlı nasos vasitəsilə Cağar-Cibir kanalından götürülən su kənd ərazində yaradılan gölə ötürülür, daha sonra isə duruldularaq torpaq mülkiyyətçilərinin istifadəsinə verilir. Həmin sudan suvarma ilə yanaşı, içməli su kimi də istifadə edilir.

Urva kəndində yeni istifadəyə verilən nasos stansiyası kənd sakinlərinin böyük sevincinə səbəb olub. Uzun illər həm suvarma, həm də içməli su sarıdan böyük əziyyət çəkən kənd sakinləri indi bol məhsul yetişdirəcəklərini bildirirlər.

Qusar Rayon Suvarma Sistemləri İdarəsinin baş mühəndisi Aslanşah Abuyev deyib ki, rayonda əkin və bağ sahələrinin suvarma suyu ilə təminatının yaxşılaşdırılması istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Görülən meliorativ tədbirlərdən biri də sahilbərkitmə işləridir. Hazırda rayon Suvarma Sistemləri İdarəsi tərəfindən həm Qusar şəhəri, həm də Qayakənd kəndi ərazisində bəndvurma işləri görülür. Məqsəd yaşayış məntəqələrini sel sularından mühafizə etməkdir.

## Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyətinin dəstəyi ilə Kürdəmirdə arıçılıq təsərrüfatları yaradılacaq

Kənd Təsərrüfatı Nazirliyi tərəfindən "PAŞA Holdinq"in dəstəyi ilə həyata keçirilən Aqrar Fəaliyyətli Azərbaycan Qadınları (AFAQ) və Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən həyata keçirilən "Cənubi Qafqazda kəndlərin davamlı inkişafı üçün təbii sərvətlərin idarəedilməsi və ekosistem xidmətlərinin qorunması" (ECOserve) layihələri çərçivəsində Kürdəmir rayonundan olan və layihələrə müraciət edən qadın fermerlər üçün təlimlər keçirilib.

Sentyabrın 15-17-də təşkil olunan təlimlərdə Kürdəmir rayonunun Bağman, Garıs-Əyribənd və Karrar kəndlərindən olan və arıçılıq üzrə fəaliyyətə başlamaq istəyən qadın fermerlər iştirak edirlər. Azərbaycan Arıçılar Assosiasiyasının dəstəyi ilə baş tutan təlimlər nəzəri və təcrübi modullardan ibarət olub. Qeyd edək ki, təlimləri və qiymətləndirmələri uğurla tamamlayan qadın fermerlər layihələr çərçivəsində dəstək tədbirlərindən faydalanacaqlar. Belə ki, onlar arıçılıq fəaliyyətinə başlamaq üçün arı yeşikləri və lazımi avadanlıqlarla təmin olunacaqlar. Həmçinin dəstək göstərilən arıçılar təsərrüfatların dayanıqlığının təmin olunması məqsədilə növbəti 1 il ərzində konsultasiya xidmətindən də yararlana biləcəklər.

AFAQ və "ECOserve" layihələri çərçivəsində birgə əməkdaşlığın məqsədi ekosistem xidmətlərinin mühafizəsi, təbii resurslardan səmərəli istifadə, biomüxtəliflik və iqlimin qorunması, ətraf mühitə zərərsiz tədbirlərin həyata keçirilməsi, kənd əhalisinin sosial rifahının yaxşılaşdırılması üçün bilik mübadiləsinin həyata keçirilməsi və regionda qadınlar tərəfindən idarə olunan arıçılıq təsərrüfatlarının yaradılmasıdır.

Qeyd edək ki, AFAQ layihəsi kənd təsərrüfatı sahəsində fəaliyyət göstərən qadınların dəstəklənməsi, onların bilik və bacarıqlarının artırılması, maliyyə və digər resurslara çıxışlarının asanlaşdırılması məqsədilə icra edilir. Bu günədək layihəyə 600-ə yaxın müraciət daxil olub, 145 müraciətçinin təsərrüfatına baxış keçirilərək qiymətləndirmə sorğusu aparılıb. Layihənin tələblərinə cavab verən ümumilikdə 98 təsərrüfat sahibinə isə müvafiq avadanlıqlar və aktivlərlə dəstək göstərilib. Layihə çərçivəsində dəstək tədbirləri bundan sonra da davam etdiriləcək.

"ECOserve" regional proqramı isə Almaniya Federal Hökumətinin Cənubi Qafqazda prioritet sahələrindən biri olan təbii ehtiyatların qorunması və davamlı istifadəsinə yönəlib. Proqramın əhatə etdiyi sahələrə ekoloji siyasət dialoqu, təhsil və təlim, maarifləndirmə və pilot layihələrin icrası daxildir. Azərbaycanda "ECOserve" proqramı kənd təsərrüfatı torpaqlarının davamlı istifadəsi sistemlərinin tətbiqinə istiqamətlənib. Proqram Almaniyanın Federal İqtisadi Əməkdaşlıq və İnkişaf Nazirliyinin (BMZ) tövsiyəsi ilə Almaniya Beynəlxalq Əməkdaşlıq Cəmiyyəti (GIZ) tərəfindən icra olunur.

## Xaçmazın Qımılqışlaq kəndində 480 şagirdlik məktəb binası istifadəyə verilib

Sentyabrın 15-də Xaçmaz rayon Şəmsəddin Sədiyev adına Qımılqışlaq kənd tam orta məktəbinin binası əsaslı təmirdən sonra istifadəyə verilib.

AZƏRTAC xəbər verir ki, ikimərtəbəli məktəbdə 18 sinif otağı, kimya, biologiya və fizika laboratoriyaları, texnologiya, hərbi hazırlıq, informatika və hesablama texnologiyası kabinələri, idman və akt zalları, kitabxana, yeməkxana, inzibati otaqlar yaradılıb. Bina istilik, elektrik və müşahidə sistemləri ilə təmin edilib. Məktəbə yeni inventar və avadanlıqlar gətirilib.

Yeni məktəb binasının həyətində qazanxana və su çənləri inşa olunub. Məktəbin həyətində abadlıq işləri aparılıb, yerə asfalt örtük döşənib.

Qeyd edək ki, məktəbin köhnə binası 1974-cü ildə istifadəyə verilmişdi. Bina istismar müddətini başa vurduğundan əsaslı təmirə ehtiyac yaranmışdı.



# Tovuzda üzümçülüyə maraq yenidən artır

Ötən əsrin 70-ci illərində Azərbaycanda üzümçülüyün inkişafı sahəsində qazanılan uğurlarda Tovuz rayonunun da payı olub. Həmin vaxtlar rayonda 10 min hektar üzüm bağı mövcud idi. Son statistik məlumata görə, həmin bağlardan 120 min ton məhsul götürülmüşdür. Rayonda həmçinin 12 şərab zavodu fəaliyyət göstərmişdir və həmin zavodlarda istehsal edilən şərablar keçmiş sovetlər birliyinin bütün respublikalarına göndərilirdi.

Təəssüflər ki, 90-cı illərin əvvəllərində digər sahələr kimi üzümçülüyə də ögey münasibət bəsləndi və nəticədə bağlar tədricən məhv edildi. Bu gün isə vəziyyət tamam fərqlidir. Dövlət başçısının üzümçülüyün inkişafına dair imzaladığı sərəncamlar, eləcə də bu sahə üzrə görülən digər tədbirlər üzümçülüyün dirçəlməsini təmin etmişdir.

Üzümçülüyün bərpası və inkişafı istiqamətində Tovuzda da işlər görülür. Təsərrüfat sahiblərinə yaradılan şərait sayəsində rayonda yeni üzüm bağları salınmış, mövcud plantasiyaların sahəsi genişləndirilmişdir. Onu da qeyd edək ki, salınan yeni üzüm bağlarına lazım olan tinglər elə rayonun özündə yetişdirilir.

Bu işlə 11 fiziki və hüquqi şəxs məşğul olur. Onlardan biri də Aşağı Quşçu kənd sakini Cavad İmamverdiyevdir. O, müxtəlif bölgələrdən gətirdiyi üzüm sortlarını calaq edərək yeni məhsuldar sortlar yetişdirir. Mütəxəssis indiyəcən "Alfonsa", "Şalfey", "Melored", "Moldovan" kimi məhsuldar üzüm sortları əldə etmişdir.

Hazırda Tovuzda 808 hektar üzüm bağı var və onun 14,5 hektarı bu il salınıb. 668 hektarı süfrə, 140 hektarı texniki sort olan bağlarda bu il də bol məhsul yetişdirilmişdir. Artıq plantasiyalardan 500 tondan çox məhsul yığılmışdır.

Tovuzda elə kəndlər var ki, istehsal etdikləri məhsulun həcminə görə əvvəlki illəri xeyli qabaqlayırlar. Aşağı Quşçu, Düz Qırıxlı, Dondar Quşçu, Aşağı Müllkülü, Dönük Qırıxlı və digər kəndlərdə hər il bol məhsul yetişdirilir. Ən çox üzüm bağı isə Aşağı Quşçu kəndi ərazisindədir. Burada 500 hektara yaxın üzüm bağı var. Qovlar şəhərində, Aşağı Quşçu və İbrahimhacılı kəndlərində fəaliyyət göstərən fermerlər isə yetişdirilmiş üzümdən şərab da istehsal edirlər.

Ümumiyyətlə, son illər tovuzlular üzümçülüyə böyük maraq göstərirlər. Aşağı Quşçu kəndinin sakini İsmayıl Hüseynov hər il üzüm bağlarının sahəsini genişləndirir. Hazırda onun 5 hektar üzüm bağı var. Bağların əsas hissəsini "Moldova" və "Mişel", bir hissəsini isə "Kişmiş" üzüm sortları təşkil edir. 20 nəfəri işlə təmin etmiş təsərrüfat sahibi yığılmış üzümün bir hissəsini qış mövsümünə saxlamaq üçün 200 tonluq soyuducu anbar da inşa etdirib. Artıq yetişdirilmiş məhsulun yarıdan çoxu toplanaraq soyuduculara yığılıb.

Aşağı Quşçu kəndinin digər sakini Elqam Tağıyev isə əsasən "Tayfu" və "Bolqar" üzüm sortları əkib. Hazırda bağda 20 nəfər üzüm yığımı ilə məşğuldur. Yığılmış məhsul müasir avadanlıqlarla təmin edilmiş 160 tonluq soyuducu anbara vurulur.

Çingiz Məhərrəmovun bağında isə əsasən texniki üzüm sortlarıdır. 8 hektar bağdan hər il yüksək məhsul götürən fermer məhsullarını şərab istehsalı üçün qəbul məntəqəsinə təhvil verir.

Hazırda Tovuzda yeni üzüm bağlarının salınmasına hazırlıq görülür. Təsərrüfat sahibləri daha çox yerli sortlara üstünlük verirlər. Bunun əsas səbəbi həmin sortların yerli iqlimə uyğun və maya dəyərinin ucuz olmasıdır.

***Sabir ƏLİYEV,***
***"Azərbaycan"***




Əvvəli 1-ci səh.

II

Şuşa yolu, Zəfər yolu,
Sevinc yolu, məhşər yolu.
Solum səhra, sağım səhra,
yarı Qarabağım səhra!
Dünyanın sonu budurmu,
mən gördüyüm yuxudurmu?!
Uçan körpü, yanan meşə,
ərşə çəkir, məni ərşə!
Kirəmidli bir binadan,
qalan nədir?
Uçuq eyvan!
Sökülmüş tənha bir divar.
apar-apardı, sök, apar!
Yerində bir şey qalmasın,
söyüş, ya giley qalmasın.
Erməninin əl işidi,
ata-baba vərdişidi.
Aftoqraf! - öz xətti, adı,
Şuşada bayquş uladı.

III

Cənab Ali Baş Konmandan,
piyada keçdin o yolu.
İlham pərisi Mehriban,
yanında, keçdin o yolu.
O bayquşlar ulaşanda,
səhrada keçdin o yolu.
Mərd əsgər, qalib Sərkərdə,
davada keçdin o yolu.
Gəldi qardaşın Ərdoğan,
qovğada keçdin o yolu.
Əvvəl də keçdin o yolu,
Sonra da keçdin o yolu!
Zəfərlə keçdin o yolu!

IV

Salam Şuşa, salam Vaqif!
Ulu Öndər, bir də salam!
Abidənin önündəyəm,
heykəl kimi dayanmışam.
Çiçək bilib sevinirik,
üstümüzə yağan qarı.
Ulu Öndər alqışlayır,
gətirdiyi qonaqları, -
Dağılardı dərdi-qəmi,
bu duman kimi, çən kimi.
Uşaq kimi sevinərdi
o, bir şair görən kimi.
İlham orda, aramızda
iyirmi bir yaşındaydı,
Şuşanın yaddaşındaydı.
Zərifə xanım - anası,
Ulu Öndərin əzizi.
O da orda qar altında
Dinləyirdi şeirimizi.
Tanıyırdı o da məni.
Elə bildim anam gəlib,
bacım gəlib,
alqışlayır orda məni.
İlahi, nə Ulu Öndər,
nə o günlər?
Hər anı bir tarix imiş.
Vaxt Zərifə xanımı da
"qayb eledi", türklər demiş.
- Əlli doqquz yaşındayam! -
Bunu Ali Baş Komandan
özü dedi.
Ulu Öndər o zaman da
həmin yaşın içindəydi.
Bu tarixdi, həqiqətdi.
Təsadüf də,
eşitmişəm zərurətdi.
Demək bu da dərkedilməz
bir hikmətdi.
Demək bu əlli doqquz da,
o birinin əvəziydi.
Atasının nəfəsiydi.
Bir kitabın o iki səhifəsiydi.
Bir dağın da
İki qarlı zirvəsiydi.
Bu, qəhrəman bir millətə,
Azərbaycan, sənə şanlı töhfəsiydi.
Demək, gələn gəlməliydi.
o Haqqa yüksəlməliydi.
Qoşun çəkib açmalıydı.
Bizim Zəfər Yolumuzu.
Tarix təqdim etməliydi,
əsrimizə, - İlham adlı oğlumuzu.

V

Salam Şuşa, Cıdır düzü!
Yer üzünün cənnət üzü!
Yerin göylərə tutduğu
dağlarda Meydan güzgüsü!
Mən burdan çağırsam səni,
eşidər dünya səsimi.
Yellər burdan tez aparar,
Ulduza-Aya səsimi.
Sıx meşələr,
uçqun qayalar, dərələr.
Dağətəyi enən cığır,
yer üzünün sonunamı
gedib çıxır?
Salam İsa bulağımız!
Səndə olub, sən susanda,
Həmişə bir qulağımız.
"Xarıbülbül", "Xarıbülbül"!
nə bu rəngdə çiçək gördüm,
nə bir yerdə bu adda Gül!
"Xarı bülbül" - mehmanxana!
Aç orda, aç pəncərəni.
Hər saatı bir ömürdü
dağlardan nəfəs alana,
təbiət çağırır səni!
Ən gözəl seyrangahımdı.
Ən gözəl tamaşam mənim!
Mədəniyyət paytaxtımdı
Şuşam mənim!

VI

Sən mənim könül aləmim,
muğanım-sazımsan, Şuşa!
Zirvədə qarlı qışımsan,
dərədə - yazımsan, Şuşa!

Yerlər geniş, göylər təmiz,
ətəyin güllü süfrəmiz.
Burda Gəncə, orda Təbriz,
Kürüm-Arazımsan, Şuşa!

Yağan leysandı, gürşaddı,
Pənah xanın ruhu şaddı.
Gedən getdi, qalan qaldı
sən alın yazımsan, Şuşa!

VII

Əsgər gördüm, gümrahıydı,
dünən, Şuşa yollarında.
"Zəfər yolu" dediyimiz
həmən Şuşa yollarında,
bu gün - Şuşa şəhərində.
Axşamın da, səhərin də
bu yerlərdə sahibi var.
yiyəsi var.
Düşmənin yüz hiyləsi var,
yüzbiri də xəyanətdi.
Bu torpağın hər qarışı
Şəhidlərdən əmanətdi.
Əmanətdir...
Əmanətdir...

***Nəriman HƏSƏNZADƏ,***
***Xalq şairi***

*Bakı, 13.09.2021*

# Yeni tədris ilinin başlanması ilə əlaqədar "YAŞAT" Fondu tərəfindən 67 şəhid övladına dəstək göstərilib

Yeni tədris ilinin başlanması ilə əlaqədar "YAŞAT" Fondu tərəfindən təhsil istiqaməti üzrə 67 şəhid övladına dəstək göstərilib.










Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin İctimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a verilən xəbərə görə, 7 özəl təhsil müəssisəsi ilə yaradılan əməkdaşlıq çərçivəsində imtahanda uğurlu nəticə əldə edən 37 şəhid övladı özəl təhsil müəssisələrində ödənişsiz kvota əsasında təhsil alacaq. Eyni zamanda, 7 şəhid övladı ödənişsiz kvota əsasında bağça və məktəbəqədər təhsil müəssisəsinə qəbul olunub. Bununla yanaşı, özəl təhsil müəssisələrində ödənişli təhsil alacaq 30 şagirdin təhsil haqqı fond tərəfindən qarşılanacaq.

"YAŞAT" Fondu tərəfindən reallaşdırılan xüsusi layihə çərçivəsində yeni tədris ilinin başlanması ilə əlaqədar bütün şəhidlərimizin məktəbli övladlarına dərs ləvazimatlarından ibarət hədiyyə qutuları çatdırılıb.

Hər bir hədiyyə qutusunda birillik müddət üçün məktəbli ləvazimatları yer alıb.

Respublika ərazisini əhatə edən layihə çərçivəsində 800-dən çox hədiyyə qutusu hazırlanıb və aidiyyəti üzrə çatdırılıb.

Bundan başqa, təhsil, peşə hazırlığı və yaradıcı potensialın inkişafı xərcləri istiqaməti üzrə bugünədək ali təhsil müəssisələrində təhsil alan 18 şəxsin təhsil haqqı fond tərəfindən, 19 şəxsin təhsil haqqı isə fondun təşəbbüsü ilə təhsil müəssisələri tərəfindən qarşılanıb.

Xatırladaq ki, 2021-2022-ci dərs ilində Bakı şəhəri və digər regionlar üzrə 83-ü oğlan, 77-si isə qız olmaqla, ümumilikdə 160 şəhid övladı birinci sinfə qədəm qoyur.

# *FHN:* "Ötən sutka ərzində 48 halda yanğına çıxış əməliyyatları həyata keçirilib"

Ötən sutka ərzində Fövqəladə Hallar Nazirliyinin (FHN) 112 - qaynar telefon xəttinə daxil olmuş zənglər əsasında nazirliyin aidiyyəti qurumları tərəfindən 48 halda yanğına çıxış və köməksiz vəziyyətdə qalma faktı üzrə 6 halda qəza-xilasetmə əməliyyatları həyata keçirilib.

FHN-in Mətbuat xidmətindən AZƏRTAC-a bildiriblər ki, görülmüş təcili və təxirəsalınmaz tədbirlər nəticəsində yanğınlar operativ qaydada söndürülüb, insanların həyatı xilas olunub. Ümumilikdə ötən sutka ərzində 1-i azyaşlı olmaqla 6 nəfər xilas edilib. Yanğın zamanı 2 nəfər xəsarət alıb.

FHN üzərinə düşən vəzifələrinin icrası, o cümlədən əhalinin və ərazilərin təbii və texnogen xarakterli fövqəladə hallardan qorunması istiqamətində fəaliyyətini davam etdirir.

# "Azercell" rekord ballı abituriyentlərimizi təbrik etdi

## Şirkət 27 abituriyent və Vətən müharibəsində şəhid olmuş hərbçilərimizin 16 nəfər tələbə adını qazanmış övladına dəyərli hədiyyələr verib










15 sentyabr Bilik Günü ərəfəsində ölkənin lider mobil operatoru "Azercell Telekom" bu dəfə yenicə tələbə adını qazanmış gənclərimizə yönəlik daha bir sosial təşəbbüslə çıxış edir.

Belə ki, 2021-ci il Azərbaycan Respublikası Dövlət İmtahan Mərkəzi tərəfindən keçirilmiş qəbul imtahanları zamanı ən yüksək bal toplayan 27 abituriyent və Vətən müharibəsində şəhid olmuş hərbçilərimizin 16 nəfər ali məktəblərə yollanan övladına onların tədris həyatında əsl yardımçıya çevriləcək hədiyyələr təqdim etdi.

Dövlət İmtahan Mərkəzi və "Zəfər" İctimai Birliyinin test imtahanlarının nəticələri üzrə təqdim edilmiş siyahıları əsasında seçilən 43 nəfər abituriyent "Azercell"dən 12 ay müddətində aktiv olacaq GencOl 6 tarifinə qoşulmaq imkanı qazandı. Xatırladaq ki, GəncOl 6 tarifi çərçivəsində tələbə-abunəçi aylıq 3GB mobil internet, 300 tarifdaxili dəqiqə, "Azercell"in tətbiqlərindən istifadə etmək üçün 3GB və WhatsApp proqramında pulsuz yazışma imkanı qazanır. Bundan əlavə, respublika üzrə ən yüksək bal yığmış yeddi abituriyent və dörd şəhid övladı şirkətdən hədiyyə olaraq 64GB Samsung Galaxy planşetini də hədiyyə aldı. Müxtəlif informasiya resurslarına rahat və operativ çıxış imkanının vacib olduğu bir dövrdə həmin hədiyyələr tələbələrin əlavə bilgilərlə bağlı ehtiyaclarını qarşılamaqda yardımçı olacaq.

Qeyd edək ki, "Azercell Telekom" hər il məktəbli və tələbələr üçün zəngin məlumat mənbəyi olan müxtəlif rəqəmsal xidmətlərdən yararlanmaq məqsədilə yeni imkanlar təşkil edir, istedadlı tələbələrə təqaüd və təcrübə proqramları həyata keçirir.

44 günlük Vətən müharibəsi zamanı canlarından keçən igid şəhidlərimizin ailə üzvləri üçün şirkət tərəfindən müxtəlif sosial təşəbbüslər, peşəkar inkişaf və dil bilgilərinin artırılmasına yönəlik onlayn təlimlər keçirilməsinə dəstək verilir. Yüksək əzmkarlıqla qəbul imtahanlarına hazırlaşaraq ali məktəblərə qəbul olan istedadlı gənclərimizlə qürur duyuruq!

# Sığorta sektorunda ləğv edilmiş lisenziyalar barədə məlumat

15.09.2021-ci il, Bakı - "Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə müvafiq olaraq könüllü müraciətlər əsasında Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 14 sentyabr 2021-ci il tarixli qərarı ilə siyahıda göstərilən (siyahı əlavə olunur) 27 nəfər fiziki şəxsə sığorta agenti fəaliyyətinə verilmiş lisenziyalar ləğv edilmişdir.

"Sığorta fəaliyyəti haqqında" Azərbaycan Respublikası Qanununun 107.1.1-ci maddəsinə əsasən ləğv olunan lisenziyaların SİYAHISI

| № | Lisenziya sahibinin adı | Lisenziyanın verilmə tarixi | Lisenziyanın nömrəsi | VÖEN |
|---|---|---|---|---|
| 1 | Nəcəfov İlkin Nəcəf oğlu | 04.03.2009 | 000012 | 0200479332 |
| 2 | Nəhmətov Nazim Fərid oğlu | 01.10.2010 | 000363 | 1701099582 |
| 3 | Məmmədov Kənan Azər oğlu | 03.03.2011 | 000408 | 1302380582 |
| 4 | Məmmədov Məmməd Əliəşrəf oğlu | 09.09.2011 | 000480 | 3000045532 |
| 5 | Xələfov Anar Valeh oğlu | 30.01.2012 | 000546 | 1302016422 |
| 6 | Salayev Pərviz Süleyman oğlu | 05.03.2012 | 000584 | 2600374142 |
| 7 | Abdullayev Emin Aydın oğlu | 20.09.2012 | 000743 | 2002417862 |
| 8 | Abbasov Toğrul Vəkil oğlu | 20.09.2012 | 000745 | 1402324332 |
| 9 | Əfsanə Əli Vilayət oğlu | 20.09.2012 | 000760 | 1601675292 |
| 10 | Səfərov Roman Möhübbət oğlu | 19.10.2012 | 000793 | 1801857742 |
| 11 | Əliyev Zaur Müxtəsər oğlu | 12.12.2012 | 000826 | 7000440372 |
| 12 | Hüseynova Fəranə Nazim qızı | 15.01.2013 | 000840 | 2002471182 |
| 13 | Məmmədəlizadə Eldar Rövşən oğlu | 13.02.2013 | 000825 | 1303055102 |
| 14 | Ağayev Xıdır Xızır oğlu | 24.01.2014 | 080516 | 6800690492 |
| 15 | Muradov Namiq Sadıq oğlu | 04.02.2014 | 080533 | 6000757372 |
| 16 | Hadıyev Fərid Rauf oğlu | 23.04.2014 | 080559 | 1401368852 |
| 17 | Əliyev Vüsal Səməndər oğlu | 11.07.2014 | 080598 | 1800477742 |
| 18 | Qubadov Elxan İlham oğlu | 30.11.2017 | SA-0024 | 1301145972 |
| 19 | Dəmirçiyev Nail Alim oğlu | 09.02.2018 | SA-0033 | 1005094072 |
| 20 | Miskərli Abas İlqar oğlu | 05.10.2018 | SA-0057 | 1404079742 |
| 21 | Əliyev Kənan Mahir oğlu | 05.10.2018 | SA-0063 | 1702332332 |
| 22 | Nemətli Mehdi Nemət oğlu | 16.11.2018 | SA-0111 | 1501605082 |
| 23 | Ağabağırov Emil Sanxam oğlu | 03.12.2018 | SA-0117 | 2001098482 |
| 24 | Qasımov Elçin Ədalət oğlu | 25.02.2019 | SA-0133 | 1305859552 |
| 25 | Əmrəliyeva Gültəkin Faiq qızı | 11.03.2019 | SA-0142 | 1404542032 |
| 26 | Mirzəyev Emin Alim oğlu | 11.03.2019 | SA-0143 | 3102299592 |
| 27 | Sofiyeva Günel Mehdi qızı | 21.11.2019 | SA-0175 | 1404827372 |

# B İ L D İ R İ Ş

Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən 20 avqust 2021-ci il tarixdə dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə 2021-2022-ci tədris ilinə "Rəqəmsal bacarıqlar" layihəsi üçün iş dəftərlərinin istehsalı ilə bağlı poliqrafiya işlərinin satın alınmasına dair keçirilmiş açıq tenderdə Tender komissiyasının qərarına əsasən "Aspoliqraf LTD" Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan olmuşdur.

Qalib təşkilatla 15 sentyabr 2021-ci il tarixdə satınalma müqaviləsi bağlanılmışdır.

***Tender komissiyası***

# B İ L D İ R İ Ş

Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyası tərəfindən 18 avqust 2021-ci il tarixdə "Azərbaycan Dövlət Bədən Tərbiyəsi və İdman Akademiyasının əsas binasının 2-ci mərtəbəsindən metal yanğın pilləkəninin quraşdırılması işinin satın alınması"na dair keçirilən elektron açıq tender prosedurunda "Göygöl Tikinti-Təmir Təchizat T.R." Məhdud Məsuliyyətli Cəmiyyəti qalib elan edilmişdir.

Qalib iddiaçı ilə 25 avqust 2021-ci il tarixdə müvafiq satınalma müqaviləsi imzalanmışdır.

***Tender komissiyası***





# Mədəniyyət





**Teatr xadimlərimiz**

**Bu gün peşəkar və akademik teatrın tarixinə baxanda klassiklərimizin hansı məşəqqətli yollardan keçdiklərini aydın təsəvvür edirik. Həvəskarlıqdan peşəkarlığadək sənət yolunda addım-addım irəliləyib, milli teatr tarixinə adını yazdıranlardan biri də bu il anadan olmasının 120 illiyi qeyd edilən rejissor İsmayıl Hidayətzadədir.**

**1901-ci ilin avqust ayında Bakıda, dənizçi ailəsində dünyaya göz açan İsmayıl cəmi 50 il ömür sürüb. Teatrla ilk tanışlığı meydan tamaşalarından, dərviş nağıllarından, şəbih mərasimlərindən başlayıb. Atası Hüseyn onu molla məktəbində təhsilə yollasa da, kasıb övladı sayıldığı üçün İsmayıla "İttihad"da güzəştlə oxumağa icazə verilib.**



# Ömür və sənət yolu: özfəaliyyətdən peşəkarlığadək

Təəssüf ki, həyat heç də hər kəsin üzünə həmişə gülmür, elələri olur ki, qapılar üzünə açılmır, yolları enişli-yoxuşlu, əzablı, məşəqqətli olur. Belələrindən biri də İsmayıldı. 1917-ci ildə atası rəhmətə getdikdən sonra İsmayıl təhsildən uzaqlaşmaq məcburiyyətində olub və ticarət müəssisələrində pirkeşlik etməyə başlayıb. Elə həmin ildən həm də Bakıdakı müxtəlif dram həvəskarları dərnəklərində aktyorluq edib. Hətta həvəskar kimi tamaşalar da hazırlayıb. Müəllimi Mirzə Rza Vaizzadənin "Səyavuş" dramını 1919-cu ildə tamaşaya qoyub. Bununla da görkəmli aktyor-rejissorun peşəkar teatr dəstələri ilə təması yaranıb.

1919-cu ilin payızında müxtəlif teatr truppaları birləşərək "Dövlət Teatrosu" kimi fəaliyyətə başlayanda kollektivin tərkibində İsmayıl Hidayətzadə də olub.

Milli Dram Teatrında 1937-ci ilədək aktyor, son iki-üç ildə həm də rejissor işləyən İsmayıl Hidayətzadə Üzeyir bəy Hacıbəylinin "Koroğlu" operasının məşqləri ilə bağlı Azərbaycan Dövlət Opera və Balet Teatrına rejissor ştatına qəbul edilib. Az sonra isə kollektivə baş rejissor təyin olunub və ömrünün sonunadək burada çalışıb.

Sənətə gəldiyi illərdə onun da əksəriyyət kimi, özünü faciə aktyoru Hüseyn Ərəblinskiyə bənzətdiyini deyirlər. Cəfər Cabbarlının ciddi təhriki ilə İsmayıl Hidayətzadə xarakterik rollar oynamağa keçib və "Sevil"dəki Əbdüləli bəyin ifasında qazandığı sənət nailiyyətindən sonra bu səpkili obrazların əvəzsiz yaradıcısı kimi şöhrətlənib.

Obrazlar qalereyası yaradan aktyor İsmayıl Hidayətzadənin oynadığı bir-birindən fərqli xarakterli Şərif, Mazandaranski, Əmiraslan bəy, Salamov, Xosməmməd, Şmaqa, Hacı Qara, Cücə və Şakro, Pyer, Rəmzi, Şeyx Nəsrulla, Baron və s. obrazları səhnə sənətinin incilərindən hesab edilib və yüksək qiymətləndirilib.

Ölməz sənətkar yalnız teatr sənətində özünün qabiliyyət və istedadı ilə parlamayıb. Onun yaradıcılıq bioqrafiyasına bir çox filmlərdə çəkildiyi obrazlar da yazılıb. "Almaz" filmində Şərif roluna çəkilən aktyor yaradıcılığına görə 1933-cü ildə Azərbaycanın Əməkdar artisti adına layiq görülüb. Rejissor axtarışlarındakı nailiyyətlərinə görə isə bu sevimli sənət fədaisi 1938-ci ildə Xalq artisti fəxri adı ilə təltif olunub.

Maraqlıdır ki, səhnə sənətində təqlid heç bir rejissor tərəfindən qəbul olunmayıb. Yəni yamsılama sənətə yad hesab edilib. Lakin İsmayıl Hidayətzadəni hələ həvəskar kimi səhnəyə gəldiyi ilk vaxtlardan "Balaca Ərəblinski" adlandırıblar. Müasirlərinin xatirələrinə görə, o, Hüseyn Ərəblinskinin sənətinin sehrinə elə düşüb ki, qeyri-ixtiyari olaraq oynadığı obrazlarda H.Ərəblinskini təqlid edib, sanki onun özü olub. H.Ərəblinski isə onun bu təqlidinə pis baxmayıb, lakin ona teatrın sirlərini öyrətməyi də unutmayıb.

İsmayıl Hidayətzadə Hüseyn Ərəblinski ilə tanışlığı barədə "Mənim yaradıcılıq yolum" adlandırdığı "Xatirələrim"də yazır: "Məktəbimizin müdiriyyəti tamaşalara rəhbərlik etmək üçün Ərəblinskini dəvət edirdi. O, truppanı öz istədiyi kimi tərtib edib, tamaşaları Tağıyev və Mayılov teatrlarında göstərmək üçün hazırlayırdı...

Belə günlərin birində mən Ərəblinski ilə, mənə çox böyük təsir bağışlayan bu adamla tanış olmuşam. Bütün xahişlərimə baxmayaraq, o, məni öz tamaşalarında məşğul etməkdən boyun qaçırırdı. Çünki mən hələ çox kiçik idim. Nəhayət ki, yanğımı duyub, "Ağa Məhəmməd Şah Qacar" pyesində kütləvi səhnələrə çıxmağıma razı oldu. Məni səhnədə görən aktyorlardan biri Ərəblinskini təqlid etdiyimi dərhal başa düşərək, qaçıb onu çağırır və məni göstərərək deyir: "Budur balaca Ərəblinski". Ərəblinski durub xeyli mənə baxır. Onun mənə baxdığını başa düşdükdə çox tutuldum, özümü büsbütün itirdim. O isə yaxınlaşıb, sadəcə, səmimi şəkildə onu təqlid etməməyimi tapşırdı. Dedi ki, mən rus aktyorlarının oyunlarına baxmalıyam, başqa əsərlərə tamaşa etməliyəm və çalışmalıyam ki, öz oyunumda özgələri təqlid etməyim, özüməməxsus tərzdə oynayım. Bu hadisədən sonra məktəb yoldaşlarım mənə "Balaca Ərəblinski" adını qoydular".

Təəssüf ki, "Balaca Ərəblinski"nin həvəskar səhnə fəaliyyəti uzunömürlü olmur. 1917-ci ildə atası vəfat etdiyinə görə, ailənin böyük oğlu olduğundan, bütün məsuliyyət İsmayılın üstünə düşür. O, səhnə barədə yox, kiçikyaşlı bacı-qardaşını necə saxlamaq haqqında düşünür. Lakin bir müddətdən sonra işləri yoluna qoyub yenidən səhnəyə qayıdır. 1920-ci ildən dövlət teatrında işləyir. 1921-ci ildə Voronovun teatr studiyasına daxil olur. Studiya ona çox şey öyrədir. Öncə, onun həvəskar imicini alt-üst edir və peşəkar aktyor kimi tanınır.

Aktyorluq sənətini həvəskarlıqdan peşəkarlığadək öyrənən İsmayıl Hidayətzadə rejissorluğa da maraq göstərir. Azərbaycan teatrında çalışan rejissor İvanovun yanında müavin işləyir. 1926-cı ildə arabir özünü rejissorluqda sınayır. Bu sınaqlar onu teatr ictimaiyyətinə rejissor kimi tanıdır. 1934-cü ildə "Siyavuş" əsərini səhnələşdirmək ona tapşırılır.

Teatr tənqidçilərinin bəyəndiyi "Siyavuş"dan sonra Opera və Balet Teatrında "Koroğlu" və "Karmen" operalarını səhnələşdirir. Rus Dram Teatrında "1905-ci ildə" və "Vaqif" tamaşalarını səhnələşdirir.

1938-ci ildə Moskvada keçirilən "Azərbaycan Mədəniyyəti Günləri"ndə quruluş verdiyi "Koroğlu" və "Arşın mal alan" tamaşaları böyük uğur qazanır ki, bu da İsmayıl Hidayətzadənin rejissor kimi şöhrətini artırır. O, Opera və Balet Teatrının rəhbəri təyin edilir.

İsmayıl Hidayətzadə tez-tez "Mən Cabbarlı məktəbinin yetirməsiyəm" deyərmiş. Bu səmimi etirafın arxasında sənət və əqidə dostluğu dayanıb. Azərbaycan teatrını inkişaf etdirmək, maraqlı tamaşalar hazırlamaq, gözəl aktyor oyunu onların sənət axtarışlarının əsas qayəsi olub.

İsmayıl Hidayətzadənin cib dəftərçəsində C.Cabbarlının xəttilə yazılmış maraqlı bir and olub: "Biz, aşağıda imza edən İsmayıl və Cabbarlı aprel ayının sonunda ikili bir qərara gəldik: Azərbaycan teatrı başqa teatrlardan geri deyilsə də, rəqabət yoxluğundan teatr bir durğunluq keçirir və özü-özünü təkrar edir. Səhnəni bu durğunluqdan çıxartmaq və yeni bir təkanla tərəqqisini gücləndirmək lazımdır. Onun üçün biz ikimiz gənc qüvvələrdən yeni bir kadro düzəldib, yeni bir teatr binası qoymağa çalışacağıq".

Təəssüf ki, onlara yeni teatr yaratmaq nəsib olmayıb.

Maraqlı faktlardan biri də odur ki, Cəfər Cabbarlı İsmayıl Hidayətzadə üçün rollar yazarmış. İsmayıl isə həmişə öz rollarının prototipini axtararmış. Məsələn, Əbdüləli obrazının prototipini şamaxılı bir tamaşaçının simasında tapıb.

Aktyorun ən sevimli rollarından biri də Salamov olub. O, bu barədə belə yazıb: "Salamov pyesdə ən ağır, ən çətin, ən məsuliyyətli roldur. Mən etiraf edirəm ki, çoxdan bəri nə səhnəmizdə belə qüvvətli pyes, nə də mənim belə gözəl, qüvvətli rolum olmuşdur..."

Bu da hər şeydə olduğu kimi son: 1 noyabr 1951-ci il - görkəmli aktyor və rejissor, "Qırmızı Əmək Bayrağı" və "Şərəf Nişanı" ordenləri ilə təltif edilən, Azərbaycan SSR Xalq artisti İsmayıl Hidayətzadənin teatrsevərlərdən əbədi ayrıldığı tarix.

İsmayıl Hidayətzadənin Azərbaycan mədəniyyəti qarşısında xidmətləri yalnız yaratdığı zəngin rol qalereyası və uğurlu rejissor işi ilə tamamlanmır. O, ilk milli baletimizin - "Qız qalası"nın librettosunun müəllifi kimi də yaddaşlardadır. Opera studiyası da onun səyi ilə yaradılıb.

Bütün ömrü boyu teatrda çalışan sənətkar "Qız qalası", "Almaz" və "Altıncı duyğu" filmlərində də özünün parlaq obrazlarını yadigar qoyub gedib.

2001-ci ildə 100 illik yubileyi təntənəli şəkildə qeyd edilən ölməz sənətkarın bu il anadan olmasından 120 il keçir.

***Məhəmməd NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

**Gənclik və sənət**

# Təbiətin rəngi hopan rəsm əsərləri



**Adətən, poetik duyğular cilalı olanda, nəzmə çəkiləndə sevilir. Şairlərin könül dünyasının rənglərini rəssamlar kətana köçürməkdə çətinlik çəkirlərmi görəsən? Axı onlar şair deyillər. Bəlkə də heç bir misranın belə müəllifi olmayıb. Amma onların da şairlər kimi, öz dünyaları var - rəngarəng, təzadlı, qol-boyun fikirlərlə dolu...**

Sənət, peşə yollarında inamla irəliləyənlər xalqın sevimli sənətkarları kimi yaddaşa yazılırlar. Təbin, istedadın, zəhmətin bəhrəsi daim insanı ucaldır. Gənclərin bu yolda inamla irəliləməsi həm də onlara yaradılan ictimai mühitdən asılıdır. Elə istedadlı gənclərimiz olub ki, onlar təsadüf nəticəsində tanınıb, məşhurlaşıblar.

Hər kəsə doğulduğu, dünyaya gəldiyi yurd daha doğmadır, ana qucağı kimi. Kəlbəcərdə dünyaya göz açanların bu mənada talelərinə bir qədər fərqli ömür-gün yazılıb. Kəlbəcərin ermənilər tərəfindən işğalından sonra doğma yurdundan didərgin düşənlərin taleyi üzünə gülməyib desək, daha doğru olardı. Bəlkə də elə buna görədir ki, Kəlbəcərdən körpə yaşlarından didərgin düşənlərin əksəriyyəti sözə, şeirə daha çox vurğun olublar: nənələrinin dili bayatılı, babalarınınkı nəsihət dolu müdrik kəlamlarla dolu...

16 avqust 2021-ci il - Müzəffər Ali Baş Komandanımız, Azərbaycan Prezidenti İlham Əliyevlə birinci xanım Mehriban Əliyeva təbiətin möcüzələri ilə dolu, sinəsi zəngin sərvətlər yatağı olan Kəlbəcərə və qayalarında qartallar qıy vuran Laçına yeni növraq gətirmək üçün yollandıqları tarixi gün!

Dövlət başçısı Kəlbəcərin füsunkar gözəlliklərinə heyranlığını kəlməbaşı bizlərə çatdırdı. Bu yerlərdən uzaq düşənlərin ömürlərinə ömür caladı həmin tarixi səfər. Dağların füsunkar təbiətini fırçası ilə kətana köçürən gənc rəssam Nəsibə Süleyman deyir ki, Kəlbəcər yalnız təbiət muzeyi deyil, həm də folklor bulağı kimi daim coşub-çağlayır.

Xalqımızın milli adət-ənənələrinə bağlı folklor nümunələrini, xüsusən də meydan tamaşalarından yadigar qalan "Kilimarası" və "Maraloyunu"nu bugünədək qoruyub saxlayan ailədə dünyaya göz açan Nəsibə xanımın sayəsində daha bir istedadlı kəlbəcərlini də tanıyaq.

Kəlbəcər rayonunun Ağcakənd kəndində vaxtilə məşhur olmuş, yüz ildən artıq yaşamış Mehralı babanın ailəsində dünyaya göz açanların demək olar ki, hər biri fitri istedadları ilə diqqəti çəkib. Mehralı baba yalnız türkəçarə ilə məşğul olan loğman deyildi. O, ilk növbədə, hazırcavablığı və müdrikliyi ilə tanınırdı. Bunlardan başqa, el ağsaqqalı folklorumuzun dərin bilicisi və yaşadıcısı kimi də sevilirdi. Qəlyanı ilə bağlı çoxlu lətifələr yaradılmışdı. Amma bütün bunlar ailənin "Maraloyunu" və "Kilimarası" xalq oyunu - meydan tamaşalarının qoruyucusu olduğunu kölgədə qoymurdu. Oğlu Süleymanla Şəfaqətin mədəniyyət-incəsənət sahəsində daha çox qabiliyyətli və istedadlı olmaları insanlara məlum idi. Ağcakənd kənd mədəniyyət evinin direktoru olan Süleyman Süleymanov bu xalq oyunları ilə sovetlər dövründə, az qala, dünyanın dörddəbirini dolaşmışdı. Bu, həm də milli xalq sərvətimizin təbliği demək idi.

Bu günlərdə həmin ailənin daha bir istedadlı üzvü ortaya çıxdı. Sən demə, Süleyman Süleymanovun qızı Nəsibə Quliyeva rəssamlıq sənətinin vurğunu kimi, rənglərin dili ilə qəlbinin istəklərini ifadə etməkdə məharət sahibi imiş.

Kəlbəcər rayonunun Ağcakənd kəndində dünyaya göz açan Nəsibə Süleyman da, digər həmyaşıdları kimi, doğma yurdundan 1993-cü ildə didərgin düşüb. Ata-anası Bərdədə müvəqqəti sığınacaq tapıb. O, Gəncə Dövlət Universitetini bitirdikdən sonra Yevlax rayonunun Kövər kəndindəki tam orta məktəbdə çalışır. Uşaqlıqdan ailədə saz havalarını sevə-sevə dinləyən Nəsibə xanım bu gün də həmin sənətin vurğunu və araşdırmaçısı kimi tanınır. Ozan-aşıq sənətinin incəliklərini dərindən öyrənən Nəsibə Quliyeva həm də fikirlərini, yurd ağrılarını, Kəlbəcər sevgisini fırça dili ilə "danışır".

Hələ geniş ictimaiyyət arasında sərgilənməyən, susan əsərlərin "danışan dili"nə baxaq: "Cənnət görmək istəyən...", "Unutmaz bu oba, bu mahal məni", "Dərdin rəngi", "Bir ailənin ocağı", "El geriyə dönəcəkmi?", "40 elin bir qapısı", "Sərhəddən başlayan Vətən", "Ecazkar aləm", "Sahibsiz sübh", "Kaman könül", "Didərginlər", "Közərən ocaqlar..."

Nəsibə Quliyevanın rəsmlərinin hər biri kətana köçürülən ömür kitabıdır. Onları oxumaq üçün gərək düşüncələrin fəlsəfənin açarı olsun. Rənglər haqqında özünəməxsus fikirləri var gənc rəssamın. Deyir ki, rənglərin də doğmaları, yadları, istiləri, soyuqları olur: "Hər bir rəngin aldığı çalar onun xarakterini dəyişə bilir. Təbiətin rənglərini harmoniya şəklində kətana köçürəndə rəssam "tərki-dünya olmursa, onun yaratmaq istədiyi obraz alınmaz, sönük, yəni ananın dünyaya şikəst gətirdiyi balasına oxşayar. Təbiətin dilini bilmək şair və rəssamlara xas olur. Hikmətli sözlər kimi, rəsmlər də müdrik olmalıdır, müasirliklə klassizm çulğaşanda bitkin olur əsər. Bir tablonun üzərində müxtəlif mənzərələr yaratmaq üçün rəssamın təxəyyülü güclü olmalıdır. Fırça da rəssamın dilidir, həm də səssiz-səmirsiz. Tablo danışmırsa, heç nə..."

Təbiətin rəngi hopan kətan və rəssamın əl işlərindən biri - dalğın, illərdir ki, küləklərə qoşulub əsən, vaxtsız yarpaqlarını töküb xəzana dönən, budaqları qurumuş qocaman palıd ağacı. Yanyörəsini erməni daşnakları yandırıb külə döndərsə də, yenidən cücərən bir kötük də görürük bu əsərlərin arasında, gənc Nəsibənin duyğularının "cilov görməyən köhləni"ni yoran yollar da. Deyəsən, Murovdağdan aşıb üzü doğma ellərə aparır o yollar...

***M.NƏRİMANOĞLU,***
***"Azərbaycan"***

**Mənəvi sərvətimiz**



# Bakı bulvarı




**Şərqin Parisi adlandırılan, qədimliklə müasirliyi özündə ehtiva edən Bakı son illər daha da gözəlləşib. Yeni göydələnlər, dünya standartları səviyyəsində çəkilən yollar, günün tələblərinə uyğun yaradılan istirahət guşələri və parklar Bakının qədim görkəminə möhtəşəmlik gətirir.**

Bu möhtəşəmliklər sırasında başdan-başa yenilənən dənizkənarı bulvar haqqında danışmazdan əvvəl xatırlatmaq istəyirdik ki, belə ünvanlardan biri də Xəzər rayonu ərazisində, avqustun 26-da açılışında Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyevanın iştirak etdiyi meşə tipli "Gənclik" parkıdır. Heydər Əliyev Fondunun layihəsi çərçivəsində reallaşmış bu park 43 hektar ərazini əhatə edir. Burada 300 minədək ağac əkilib, yaşıllıqlar salınıb. İnsanların asudə vaxtlarının səmərəli təşkili məqsədilə zəruri infrastruktur yaradılıb. Parka üz tutanlar həm yay, həm də qış aylarında paytaxt Bakının, o cümlədən Xəzər dənizinin əsrarəngiz mənzərəsini də seyr edə bilirlər.

Etiraf edək ki, bu əsrarəngizliklər sırasında Dənizkənarı bulvarın öz yeri, öz gözəlliyi var. Nəinki, respublikamızın bölgələrindən Bakıya yolu düşənlər, eləcə də xarici ölkələrdən Azərbaycana gələn turistlər, ilk növbədə, bu məkanı görməyə can atırlar. Xatırladaq ki, "Bulvar" sözü fransız mənşəlidir və sahil boyunca gəzinti zolağı deməkdir. Xəzərin mirvari boyunbağısı adlandırılan bu gəzinti zolağında rahat hərəkət üçün çəkilən xüsusi xətlər, müxtəlif dekorativ kollar və ağaclar, çiçək-gül qarışıq çəmənliklər, rəngbərəng işıqlandırma fanarları, oturacaqlar, istirahət yerləri və digər gözoxşayan görüntülər gəzintidə olanları məmnun edir.

Keçən əsrin 50-60-cı illəri Dənizkənarı bulvarın "qızıl dövrü" kimi qiymətləndirilsə də, burada bir neçə dəfə yüksəksəviyyəli təmir, yenidənqurma və yaşıllaşdırma işləri aparılsa da, 113 yaşlı Bakı bulvarı əsl inkişaf mərhələsinə Ümummilli Lider Heydər Əliyevin Azərbaycana birinci hakimiyyəti illərində qovuşub. 1970-ci illərdə respublikada və Bakı şəhərində yaşıllaşdırma və abadlaşdırma işlərinin genişləndirilməsi nəticəsində Dənizkənarı bulvarda da yenidənqurma işləri aparılıb. Bulvar şərq və qərb istiqamətlərində genişləndirilərək uzunluğu 3,7 kilometrə çatdırılıb. Yerli sakinlər bəzən bura Sahil bağı da deyirdilər.

Sahil bağının əhəmiyyətini nəzərə alan Heydər Əliyev 1998-ci il dekabrın 29-da Dənizkənarı bulvara Milli Park statusu verilməsi haqqında fərman imzalayıb. Məhz bu fərmandan sonra Sahil bağının taleyində inkişafa doğru böyük dönüş yaranıb. Ən başlıcası, Nazirlər Kabinetinin 29 dekabr 2001-ci il tarixli 132 nömrəli qərarına əsasən, Dənizkənarı Milli Park ölkə əhəmiyyətli daşınmaz tarix və mədəniyyət abidələri siyahısına daxil edilib.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu davam etdirən Prezident İlham Əliyevin tapşırığı ilə bulvar ərazisinə diqqət və qayğı daha da artırılıb. Dövlət başçısının 10 yanvar 2008-ci il tarixli fərmanı ilə Dənizkənarı bulvarın təbii landşaftının bərpası, onun tarixi simasının saxlanılması, ərazinin zəngin florasının inkişaf etdirilməsi, bulvarın mühafizə olunması, sosial-mədəni tədbirlərin həyata keçirilməsi məsələlərinin həllini təmin etmək məqsədilə Dənizkənarı Bulvar İdarəsinin yaradılması Sahil bağının inkişafında böyük quruculuq işlərinə səbəb olmuşdur. 2015-ci ildə bulvar ərazisinin iki istiqamətdə - birinci Dövlət Bayrağı Meydanından (Daş Salnamə Muzeyinin qarşısından) Bibiheybət məscidinə kimi Bayıl bulvarı, digəri isə Dəniz Ticarəti Limanından "Bulvar" hotelə kimi uzadılan "Ağ Şəhər" bulvarının yaradılmasına start verilmişdir. Hazırda Bakı "Ağ Şəhər" Bulvarının uzunluğu 2,7 kilometr, sahəsi 34,6 hektardır. Bayıl bulvarının uzunluğu 2,3 kilometr, sahəsi 24 hektardır. Bu ərazilərdə yenidənqurma və abadlıq işləri ilə yanaşı, müxtəlif istirahət, iaşə və müasir mədəniyyət obyektləri inşa edilib.

Hazırda 200 hektardan çox sahəni əhatə edən Bakı bulvarının ümumi ərazisi 16 kilometrdir. Bulvarın Bakının müasir memarlıq tələblərinə uyğun qurulması, mühafizəsi, qorunması, bərpası və inkişafı baxımından xeyli işlər görülüb. Yeni çəmənliklər salınıb, xan çinarlar, sərv və küknar ağacları, müxtəlif çeşidli gül kolları əkilib, yeni attraksionlar quraşdırılıb. Parkın "Azneft" meydanı ilə üzbəüz ərazisində musiqili fəvvarə kompleksi yaradılıb. Kukla teatrı yenidənqurmadan sonra istifadəyə verilib. 2008-ci ildə isə Hökumət evinin qarşısında yaradılan ikinci fəvvarənin tikintisi, həmin il dekabrın 27-də Beynəlxalq Muğam Mərkəzinin açılışı hamının ürəyincə olub. Təsadüfi deyil ki, Bakı bulvarı dünya ölkələrində mövcud olan bulvarlardan öz gözəlliyi və yaşıllığı ilə seçilir.

Qərblə Şərqin memarlıq elementlərini özündə birləşdirən Milli Parkda hazırda tikinti və abadlıq işləri davam etdirilir. Turistlərin və şəhər sakinlərinin sevimli gəzinti və istirahət yeri olan bu ərazidə tarixi əhəmiyyətli məkanlar yaradılır. Dövlət Bayrağı Meydanı, Dövlət Bayrağı Muzeyi və Avroviziya müsabiqəsinin keçirildiyi idman-əyləncə kompleksi olan Bakı Kristal Zalı da bu ünvanlar sırasına daxildir. Azərbaycan torpaqlarının 30 illik erməni işğalından azad edilməsini və tarixi Zəfər salnaməsini özündə yaşadan "Qənimətlər parkı" ziyarətçilərin ən çox üz tutduqları ünvanlardandır. Bu gün erməni işğalından azad edilmiş bütün torpaqlarımızda üçrəngli, şanlı Azərbaycan bayrağı dalğalanır. Hazırda Bulvarda Bayraq meydanının yenidənqurması ilə bağlı işlər davam etdirilir. Milli Parkda tarixi ənənələrin qorunması məqsədilə Azərbaycanın birinci xanımı, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşəbbüsü ilə müxtəlif layihələr həyata keçirilib. Onlardan biri də buradakı "Qu quşları" fəvvarəsinin yenidən bərpadan sonra paytaxt sakinlərinin istifadəsinə verilməsidir.

Dənizkənarı Milli Parkda diqqət çəkən amillərdən biri də səliqə-sahman və təmizlik işləridir. Bunlar üçün ən müasir avadanlıqlardan istifadə olunur. Hiss edilir ki, buraya müxtəlif xarici ölkələrdən gətirilib əkilmiş hər çiçəyə, hər kola, hər ağaca ciddi nəzarət edilir, özünəmüvafiq üsulda qayğı göstərilir. Bir sözlə, mənəvi sərvətimiz olan bu milli parkda hər bir layihə göz oxşayandır. Bütün bunlar qürur duyduğumuz Bakı bulvarının daha da gözəlləşməsinə xidmət edir.

***Rəhman SALMANLI,***
***"Azərbaycan"***

## "İcbari Tibbi Sığorta Üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 65 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

Malgöndərənlərə (podratçılara) təklif olunur ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş tenderin Əsas şərtlər toplusunu Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanından (əlaqələndirici şəxs: Anar Rəhimov, telefon: (+99412) 310-07-70 (daxili 2022), e-mail: arahimov@its.gov.az) ala bilərlər.

Tender 1 LOT üzrə keçirilir:

LOT-1. Yeni müasir tibbi avadanlıq kompleksləri ilə təchiz olunmuş 65 ədəd təcili tibbi yardım avtomobillərinin satın alınması.

İştirak haqqı: LOT-1. 500.00 (beş yüz) manat;

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Tenderdə iştirak haqqının ödənilməsi üçün satınalan təşkilatın bank rekvizitləri:

**Təşkilat: "İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi" publik hüquqi şəxs**
**VÖEN: 1701911851**
**Hesab: AZ52AIIB38090019440013375105**
**Bank: Kapital Bank ASC Səbail filialı**
**Bankın VÖEN-i: 9900003611**
**Kod: 200059**
**Müxbir hesabı: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T.BIK: AIIBAZ2X**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

1) Tender prosedurunda iştirak etmək üçün yazılı müraciət;
2) Tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;
3) Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında vergi orqanından arayış;
4) İddiaçının son bir ildəki (əgər daha az müddət fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründəki) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
5) İddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti (bir ildən az müddətə fəaliyyət göstərirsə, həmin dövrü əhatə edən maliyyə hesabatının surəti);
6) Tender təklifi (təkliflərin açıldığı tarixdən sonra azı 30 bank günü qüvvədə olmalıdır);
7) Tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (təminatın qüvvədə olma müddəti tender təklifinin qüvvədə olma müddətindən 30 bank günü çox olmalıdır);
8) Tender iştirakçısının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə məlumat;
9) Tender iştirakçısının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özünün, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə məlumat;
10) Tender iştirakçısının satınalma müqaviləsini bağlamaq səlahiyyəti olmasının təsdiqi kimi kiçik, orta, yaxud hüquqi şəxslər birliyinin daxilində mikro sahibkarlıq subyekti olması haqqında müvafiq səlahiyyətli orqan tərəfindən verilmiş arayış;
11) Tender iştirakçısının Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərinin, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında vergi orqanı tərəfindən verilmiş arayış;
12) Tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd (vəzifəyə təyin edilməsi barədə əmrin təsdiq olunmuş surəti və ya müvafiq səlahiyyətin verilməsi barədə etibarnamə);
13) İddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;
14) Tenderin Əsas şərtlər toplusunda göstərilən bütün digər sənədlər.

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır). Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir. İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 15.10.2021-ci il saat 15:00-a qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə 25.10.2021-ci il saat 17:00-a qədər Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanına təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır. İddiaçıların təkliflərinin açılışı 26.10.2021-ci il saat 15:00-da Bakı şəhəri, Nəsimi rayonu, Lev Tolstoy küçəsi, 170 ünvanında aparılacaqdır. Açılışda iddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər. İddiaçı Əsas şərtlər toplusunun məzmununu, o cümlədən təlimatları, formaları və şərtləri tam olaraq öyrənməlidir. Əsas şərtlər toplusunu almış iddiaçının Əsas şərtlər toplusunun məzmunundan, o cümlədən təlimatlardan, forma və şərtlərdən kənar təklif verməsi onu bu məsuliyyətdən azad etmir. Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

***Tender komissiyası***

## Azərbaycan Respublikası Təhsil Nazirliyinin Təsərrüfathesablı Əsaslı Tikinti və Təchizat İdarəsi respublika üzrə bir sıra təhsil müəssisələrində cari təmir işlərinin satın alınması üçün

### *açıq tender elan edir*

Elektron satınalmada iddiaçı qismində satınalma predmeti üzrə müvafiq təcrübəyə malik mikro, kiçik və orta sahibkarlıq subyektləri iştirak edə bilərlər.

Tenderdə iştirak etmək istəyən malgöndərənlər (podratçılar) etender.gov.az dövlət satınalmalarının vahid internet Portalına (Portal) daxil olaraq tender haqqında ətraflı məlumatı əldə edə bilərlər.

Müqavilənin icrasını təmin etmək üçün malgöndərənlər (podratçılar) lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyən iddiaçılar iştirak haqqının ödənişini həyata keçirdikdən sonra tenderin Əsas şərtlər toplusunu əldə edə və müsabiqə üçün müvafiq sənədləri təqdim edə bilərlər.

Tenderdə iştirak haqqı 150 (bir yüz əlli) manatdır. İştirak haqqı heç bir halda geri qaytarılmır. İddiaçılar tenderdə iştirak haqqını ödədikdən sonra Portal vasitəsilə tender üzrə tələb olunan ilkin sənədləri 05 oktyabr 2021-ci il saat 11:00-a qədər, tender təklif və bank təminatı sənədlərini isə 13 oktyabr 2021-ci il saat 17:00-a qədər Portal vasitəsilə təqdim etməlidirlər.

Sənədlər Azərbaycan dilində tərtib olunmalıdır (xarici dildə olan tender sənədləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

İddiaçılar tender ilə bağlı sualları Portal vasitəsilə satınalan təşkilata ünvanlaya bilərlər.

Tender təklifləri 14 oktyabr 2021-ci il saat 11:00-da açılacaqdır. İddiaçılar tenderin nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

QEYD: Tenderdə iştirak, tenderin qiymətləndirilməsi və digər bütün prosedurlar yalnız elektron qaydada Portal vasitəsilə aparılır.

***Tender komissiyası***

## Azərbaycan Respublikasının Mərkəzi Bankı

### *açıq tender elan edir*

Azərbaycan Respublikasının Mərkəzi Bankı "Dövlət satınalmaları haqqında" Azərbaycan Respublikasının Qanununa müvafiq olaraq əsas vəsaitlərin, nağd pulun və nəqliyyat vasitələrinin sığortasından ibarət olan birləşdirilmiş sığorta xidmətləri üzrə açıq tender keçirir.

Tender proseduru 29 oktyabr 2021-ci il saat 15:00-da Azərbaycan Respublikası Mərkəzi Bankının inzibati binasında (Bakı şəhəri, R.Behbudov küçəsi, 90) keçiriləcəkdir.

İddiaçı qismində Azərbaycan Respublikası qanunvericiliyində nəzərdə tutulmuş qaydada sığorta fəaliyyətinə lisenziyası olan, müvafiq sığorta növlərinin aparılması üzrə rəsmi razılıq almış, müvafiq icbari sığorta növləri üzrə İcbari Sığorta Bürosunun İştirakçısı Sığortaçılarının Reyestrinə daxil edilmiş sığorta şirkəti çıxış edə bilər.

İddiaçının tələb olunan kapitalı Azərbaycan Respublikası Mərkəzi Bankının İdarə Heyətinin 04 mart 2020-ci il tarixli 08/2 nömrəli Qərarına uyğun olaraq qeyri-həyat sığortası fəaliyyəti üzrə sığortaçılar üçün tələb olunan 5 000 000 (beş milyon) manatdan az olmamalıdır.

Təkrarsığorta xarici təkrarsığorta şirkəti tərəfindən həyata keçirildikdə xarici təkrarsığorta şirkəti Mərkəzi Bankın müvafiq reyestrinə daxil edilmiş təkrarsığorta şirkəti olmalıdır (təkrarsığorta xarici sığorta brokeri vasitəsilə həyata keçirildikdə də).

Tenderdə iştirak etmək üçün iddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak üçün ərizə;*
- *iddiaçının hüquqi statusunu əks etdirən hüquqi sənədlərin (nizamnamə, dövlət qeydiyyatı haqqında şəhadətnamə və ya hüquqi şəxslərin dövlət reyestrindən çıxarış) notariat qaydasında təsdiq edilmiş surətləri, bank rekvizitləri;*
- *iddiaçıya Azərbaycan Respublikasında sığorta fəaliyyəti ilə məşğul olmaq üçün verilmiş xüsusi razılığın (lisenziyanın) və əmlakın, o cümlədən nağd pulun yanğından və digər risklərdən sığortalanmasına, nağd pulun daşınması üzrə risklərdən sığortalanmasına, habelə avtonəqliyyat vasitələrinin könüllü və avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortasına dair verilmiş razılığın surəti;*
- *tenderin Əsas şərtlər toplusunda müəyyən edilmiş reytinqə malik olan təkrarsığortaçılar tərəfindən riskin qəbul edilməsini təsdiq edən məlumat;*
- *tender təklifini və satınalma müqaviləsini imzalamaq səlahiyyətinə malik olan şəxsin səlahiyyətlərini təsdiq edən sənəd;*
- *tenderdə iştirak haqqının ödənilməsi haqqında bank arayışı;*
- *iki nüsxə (əsli və surəti) Azərbaycan dilində tender təklifi (tender təklifi 14 dekabr 2021-ci il tarixədək qüvvədə olmalıdır);*
- *tender təklifinin qiymətinin 1 (bir) faizi məbləğində bank təminatı (tenderin Əsas şərtlər toplusuna əlavə edilən bank qarantiyası formasında);*
- *son 1 (bir) ildəki maliyyə vəziyyəti barədə bank arayışı;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin, habelə son 1 (bir) il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrin yerinə yetirilməməsi hallarının mövcud olmaması haqqında müvafiq dövlət orqanından arayış;*
- *tenderin Əsas şərtlər toplusunda iddiaçının ixtisas uyğunluğuna dair tələb olunan digər məlumat.*

İddiaçı tender təklifini və tender təklifinin bank təminatını ən geci 28 oktyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə ikiqat zərfdə, digər tələb olunan sənədləri isə ən geci 20 oktyabr 2021-ci il saat 18:00-a qədər möhürlənmiş, imzalanmış, yazılı surətdə bağlı zərfdə Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasına təqdim etməlidir. Göstərilən vaxtdan gec təqdim olunmuş zərf və sənədlər açılmadan geri qaytarılacaq və iddiaçı tenderdən kənarlaşdırılacaqdır.

İddiaçılar tenderdə iştirak etmək üçün Mərkəzi Bankın aşağıdakı hesabına 300 (üç yüz) manat məbləğində iştirak haqqı köçürməlidir:

Azərbaycan Respublikasının Mərkəzi Bankı
**Kod: 501004**
**VÖEN: 9900071001**
**Hesab: AZ25NABZ01701190000000001944**
**Müxbir hesab: AZ74NABZ01451700000000001944**
**S.W.I.F.T. BİK: NABZAZ2C**

İştirak haqqı heç bir halda geri qaytarılmır.

Sığorta xidmətinin göstərilməsinə 01 yanvar 2022-ci il tarixdən başlanılır. Avtonəqliyyat vasitəsi sahiblərinin mülki məsuliyyətinin icbari sığortası üzrə xidmət göstərilməsinə 25 yanvar 2022-ci il tarixdən başlanılır.

Sığorta xidmətinin göstərilməsi müddəti: 1 (bir) il.

Qiymətləndirmə meyarları: qiymət, təklif olunan xidmətlər toplusu üzrə sığorta şərtləri və şərtsiz azadolma məbləğləri.

Tenderdə iştirak etmək istəyən sığorta şirkətləri iştirak haqqının ödənilməsi barədə bank arayışını təqdim edərək Mərkəzi Bankın Bakı şəhəri, R.Behbudov küçəsi, 90 ünvanında yerləşən inzibati binasından tenderin Əsas şərtlər toplusunu əldə edə bilərlər. Tender üzrə əlaqələndirici şəxslər:

Elvin Şirdanov (Hüquq departamenti), telefon: 493-11-22 (dax.tel: 428), elektron poçt ünvanı: elvin_shirdanov@cbar.az

Ceyhun Səməndov (İnzibati departament), telefon: 493-11-22 (dax.tel: 599), elektron poçt ünvanı: ceyhun_samandov@cbar.az.

***Tender komissiyası***

## Salyan Rayon İcra Hakimiyyəti 2021-ci ildə "Salyan Şəhər Küçələrinin Əsaslı Təmiri" işlərinin satın alınması məqsədilə

### *açıq tender elan edir*

"Salyan Şəhər Küçələrinin Əsaslı Təmiri" işlərinin satın alınması

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etsinlər. Tender təkliflərinin qiymətləndirilməsində aşağıdakı meyarlara üstünlük veriləcəkdir: aşağı qiymət, yüksək keyfiyyət, müqavilənin vaxtında yerinə yetirilməsi, podratçının analoji işlərdə təcrübəsi, təmir bərpa işləri üzrə ixtisas göstəricilərinin uyğunluğu.

Muqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi texniki, maliyyə imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş Əsas şərtlər toplusunu Portal vasitəsilə ala bilərlər. (əlaqələndirici şəxs: Lalayev Mahir İdris oğlu, telefon: 0-21-255-50-23)

**İştirak haqqı: 1000 manat**
**Təşkilat: Salyan Rayon İcra Hakimiyyəti**
**17 saylı Regional Xəzinədarlıq İdarəsi**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Hesab:AZ41NABZ01360100000000003944**
**VÖEN: 1401555071**
**Kod: 210005**
**Fond 7Y**
**Salyan Rayon İcra Hakimiyyəti**
**Hesab: AZ36CTRE00000000000002513131**
**VÖEN: 7000028611**

İştirak haqqı heç halda geri qaytarılmır.

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təsdiq olunmuş qaydada elektron formada təqdim etməlidirlər:

- *Tenderdə iştirak etmək üçün Portala elektron müraciət;*
- *Tenderdə iştirak haqqının ödənilməsi barədə sənəd;*
- *Tender təklifi (zərflərin açılışı tarixdən ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *Tender təklifinin dəyərinin 1 faizi dəyərində bank təminatı;*
- *Azərbaycan Respublikasında Vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması və son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) vergiödəyicisinin Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi hallarının mövcud olmaması barədə arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təqdim olunmuş maliyyə hesabatının surəti;*
- *Dövlət Vergi Xidməti tərəfindən həmin iddiaçıların işçilərinin sayı, əmlakları, lazımi texniki imkanlarının olmasına dair rəsmi arayış;*
- *müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması ilə bağlı Ədliyyə və Vergi orqanlarından alınmış arayış;*
- *satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziya və ya icazəyə malik olması;*
- *satınalma müqaviləsinin icrasını təmin etmək üçün müvafiq sahədə peşəkarlığının, təcrübəsinin, texniki və maliyyə imkanlarının, işçi qüvvəsinin, idarəetmə səriştəsinin, etibarlığının olması ilə bağlı sənədlərin təqdim edilməsi;*
- *mikro, kiçik və orta sahibkarlıq meyarlarından birinə aid olması ilə bağlı Dövlət Statistika Komitəsindən alınmış arayış;*
- *əmək reyestrindən işçilər barədə çıxarışlar.*

İddiaçılar (podratçılar) tenderdə iştirak etmək üçün 1 və 4-cü bəndlərdə göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 11 oktyabr 2021-ci il saat 12:00-a kimi Tender komissiyasına dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə elektron formada təqdim etməlidirlər. Tender təklifi və bank zəmanətini isə 19 oktyabr 2021-ci il saat 12:00-a qədər elektron Portal vasitəsilə təqdim etməlidirlər. Göstərilən vaxtdan gec təqdim olunmuş təklilər dövlət satınalmalarının vahid internet Portalı vasitəsilə qəbul olunmayacaq. İddiaçıların təklifləri 20 oktyabr 2021-ci il saat 12:00-da elektron Portal vasitəsilə açılacaqdır. İddiaçılar açılışın nəticələri ilə Portal vasitəsilə tanış ola bilərlər.

***Tender komissiyası***

## Son sutkada Azərbaycanda koronavirus infeksiyasına 2064 yeni yoluxma faktı qeydə alınıb

Azərbaycanda yeni növ koronavirus (COVID-19) infeksiyasına son sutkada 2064 yoluxma faktı qeydə alınıb, 3831 nəfər müalicə olunaraq sağalıb.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a verilən məlumata görə, analiz nümunələri müsbət çıxan 28 nəfər vəfat edib.

İndiyədək ölkədə ümumilikdə 465 min 390 nəfərin koronavirus infeksiyasına yoluxması faktı müəyyən edilib, onlardan 420 min 25 nəfər müalicə olunaraq sağalıb, 6 min 195 nəfər vəfat edib. Aktiv xəstə sayı 39 min 170 nəfərdir.

Son sutkada yeni yoluxma hallarının müəyyənləşdirilməsi ilə əlaqədar 14 min 972, dünənə qədər isə ümumilikdə 4 milyon 690 min 82 test icra olunub.




## Dünən COVID-19 əleyhinə 65 min dozadan çox peyvənd vurulub

Sentyabrın 15-də Azərbaycanda 65 min 424 nəfər yeni növ koronavirus (COVID-19) infeksiyası əleyhinə vaksinasiya olunub.

Nazirlər Kabineti yanında Operativ Qərargahdan AZƏRTAC-a bildirilib ki, gün ərzində birinci mərhələ üzrə vaksinasiya olunanların sayı 21 min 363, ikinci mərhələ üzrə vaksinasiya olunanların sayı 44 min 61 nəfər təşkil edib.

Azərbaycanda dünənə qədər vurulan vaksinlərin ümumi sayı 7 milyon 745 min 851, birinci mərhələ üzrə peyvənd olunanların ümumi sayı 4 milyon 551 min 501, ikinci mərhələ üzrə vaksinasiya edilənlərin sayı 3 milyon 194 min 350 nəfər təşkil edir.




## ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Mərkəzi Seçki Komissiyasının sədri Məzahir Pənahov, komissiyanın üzvləri və katibliyin rəhbərliyi Mərkəzi Seçki Komissiyasının üzvü Etibar Quliyevə atası

**CƏFƏR QULİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasının sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev və AHİK-in kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Dövlət İqtisad Universitetinin rektoru, professor Ədalət Muradov və universitetin kollektivi Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik İradə Hüseynova və AMEA-nın Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutunun kollektivi Azərbaycan Milli Elmlər Akademiyasının akademik-katibi akademik Arif Həşimova bacısı

**SÜSƏN XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Akademik İradə Hüseynova və AMEA Biologiya və Tibb Elmlər Bölməsinin üzvləri Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Milli Elmlər Akademiyası Riyaziyyat və Mexanika İnstitutunun kollektivi akademik Arif Həşimova bacısı

**SÜSƏN ƏBİLOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Tibb Universitetinin Ailə təbabəti kafedrasının müdiri Mustafa Salihov və kafedranın əməkdaşları Azərbaycan Tibb Universitetinin rektoru, professor Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli Konfederasiyasının Rəyasət Heyəti və kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

2 nömrəli Bakı Baza Tibb Kollecinin direktoru Dilarə Məmmədəliyeva və kollecin kollektivi Azərbaycan Tibb Universitetinin rektoru Gəray Gəraybəyliyə anası

**SVETLANA XANIMIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və kollektivi institutun baş mühasibi

**NİZAMİ RAMAZAN OĞLU NƏCƏFOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

---

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və kollektivi Heyrət Əhmədova anası

**ZEYNƏB ƏHMƏDOVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az.reklam@mail.ru
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 432-37-68, |
| Baş redaktor müavinləri | - 538-86-86, 434-63-30, 539-72-39, | Humanitar siyasət şöbəsi | - 538-56-60, 539-63-82 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 5024
Sifariş 1698
Qiyməti 40 qəpik